XALQ DÖVLƏT ÜÇÜN YOX, DÖVLƏT XALQ ÜÇÜN OLMALIDIR...



# BİNƏQƏDİ

№18 (155) | 28 oktyabr 2016

İCTİMAİ-SİYASİ QƏZET

Qiymәti: 40 qәpik

Möhkəm əsaslar üzərində yeni inkişaf xətti tutan müstəqil Azərbaycan
SƏH. 3

## Avropa İttifaqının nümayəndəsi ilə Dağlıq Qarabağ münaqişəsi müzakirə edilib



Prezident İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Herbert Salberin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı gedən proseslər müzakirə edildi, Ermənistanın qeyri-konstruktiv mövqe tutaraq bu münaqişənin həllinə daim əngəl yaratdığı vurğulandı.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində həmsədrlərin və beynəlxalq birliyin rolu ətrafında fikir mübadiləsi aparıldı.

## Azərbaycan və Venesuela prezidentlərinin görüşü olub



Oktyabrın 22-də ölkəmizdə səfərdə olan Venesuela Bolivar Respublikasının Prezidenti Nikolas Maduro ilə Prezident İlham Əliyevin ilə görüşü olub.

Prezident İlham Əliyev Venesuela Prezidentinin Azərbaycana səfərinin ikitərəfli əməkdaşlığın genişləndirilməsi və ölkələrimiz arasında münasibətlərin müxtəlif sahələrdə inkişafı üçün yaxşı imkanlar yaratdığını vurğuladı.

Venesuela Prezidenti Nikolas Maduro Azərbaycana səfərinin ikitərəfli əlaqələrin inkişafına yol açacağını dedi. O, bunun hər iki ölkənin regionları üçün əhəmiyyətli olduğunu bildirdi.

Görüşdə ticarət, investisiya qoyuluşu, energetika sahələrində əməkdaşlıq əlaqələrinin araşdırılması barədə fikir mübadiləsi aparıldı.

TƏDBİR SƏH. 4



Qəsəbə sakinləri ilə səyyar görüş

MÖVQE SƏH. 5



Müstəqilliyə aparan keşməkeşli və şərəfli yol

MÜSABİQƏ SƏH. 6




Binəqədi Rayon İcra Hakimiyyəti yenə birinci olub

# Bakıda Azərbaycan-Xorvatiya biznes forumu keçirilib




Oktyabrın 24-də Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviç Azərbaycana rəsmi səfərə gəlib. Həmin gün rəsmi qarşılanma mərasimindən sonra dövlət başçısı İlham Əliyevin xanım prezidentlə təkbətək görüşü olub. Təkbətək görüş başa çatdıqdan sonra prezidentlər geniş tərkibdə görüş keçiriblər.

Həmin gün Azərbaycanın və Xorvatiyanın dövlət başçıları mətbuata bəyanatlarla çıxış ediblər.

Oktyabrın 25-də Bakıda Azərbaycan-Xorvatiya biznes forumu keçirilib. Prezident İlham Əliyev və ölkəmizdə rəsmi səfərdə olan Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviç biznes forumda iştirak ediblər.

Biznes forumda Azərbaycan və Xorvatiya tərəfindən rəsmi şəxslərlə yanaşı, gəmiqayırma, nəqliyyat, maşınqayırma, qida sənayesi, kimya, tekstil, əczaçılıq, tikinti, energetika, informasiya-kommunikasiya texnologiyaları, səhiyyə, turizm, daşınmaz əmlak, konsaltinq və digər sahələrdə fəaliyyət göstərən 150-dən çox iş adamı iştirak edib.

Biznes forumda çıxış edən Prezident İlham Əliyev bildirib ki, xanım Prezidentin Azərbaycana səfəri yekunlaşmaq üzrədir: "Artıq nəticələr barədə danışa bilərik. Nəticələr olduqca müsbətdir. Bütün mühüm məsələləri müzakirə etdik. Regional məsələlər ikitərəfli əlaqələr baxımından müzakirə edildi. Təbii ki, biz bu müzakirələrdə iqtisadi əməkdaşlığımıza böyük əhəmiyyət verdik. Məmnun qaldığımızı bildiririk ki, bir qrup xorvat iş adamı xanım Prezidenti Azərbaycana səfərində müşayiət edir və bu gün bu biznes forumda iştirak edir.

Əməkdaşlığımızın əsas istiqamətlərini müəyyənləşdirdik və çox müsbət əməkdaşlıq etdiyimizi bir daha təsdiqlədik. Biz dostuq, tərəfdaşıq.

Siz iş adamları bu gözəl imkanlardan istifadə edərək əlaqələrinizi genişləndirməlisiniz. Çünki sərmayə qoyuluşu, birgə fəaliyyət böyük əhəmiyyət kəsb edir. Bizim gözəl siyasi əlaqələrimizi nəzərə alsaq, burada çox yaxşı perspektivlər var".

Azərbaycanla Xorvatiyanın çox gözəl siyasi əlaqələri olduğunu deyən Prezident işgüzar dairələrin də bu nümunədən istifadə edəcəklərinə əmin olduğunu vurğulayıb: " Bizim keçmişdə də birgə layihələrimiz olmuşdur. Amma bu gün biz ticarət dövriyyəmizə nəzər salsaq görərik ki, burada iki element mövcuddur və onlar bu dövriyyənin artmasına və azalmasına təsir edir. Biri Azərbaycandan Xorvatiyaya neft satışıdır. Digəri isə Xorvatiya gəmilərinin Azərbaycana satışıdır. Bu, çox gözəl əməkdaşlıqdır. Burada idxal-ixrac əməliyyatlarından söhbət gedir. Amma düşünürəm ki, artıq zamanı yetişib ki, biz iqtisadi əməkdaşlığımızı şaxələndirək və idxal-ixrac əməliyyatlarımızı genişləndirək".

Ölkə başçısı Azərbaycanda yeni sahələr yaradılmasında maraqlı olduqlarını forum iştirakçılarının diqqətinə çatdırıb: " Burada əczaçılıqdan söhbət gedir. Xorvatiyanın bu sahədə böyük təcrübəsi var. Biz bu baxımdan idxaldan asılı ölkəyik və düşünürəm ki, məhz əczaçılıq - dərmanların istehsalı sahəsində birgə müştərək müəssisələrin yaradılması bizim üçün faydalı olar. Çünki bizim bazar genişlənir, əhalimiz artıq on milyon nəfərə çatır və əhalinin sayı ildən-ilə artır. Bu səbəbdən bu sahə çox maraqlı ola bilər.

Turizm sahəsi. Təbii ki, Xorvatiyanın bu sahədə çox böyük təcrübəsi var. Dünən xanım Prezidentlə söhbət edəndə mənə turistlərin sayı ilə bağlı maraqlı məlumat verdi. Biz də ölkəmizdə bu sahəni inkişaf etdirmək əzmindəyik.

Azərbaycan hazırda kənd təsərrüfatı sahəsinə böyük sərmayə yatırır. Bildiyiniz kimi, biz geniş çeşiddə kənd təsərrüfatı məhsullarını ixrac edirik. İnformasiya-kommunikasiya texnologiyaları, təhsil sahələri də müzakirə edilə bilər. Ümumiyyətlə, gündəliyimizdə bir sıra məsələlər var. Amma düşünürəm ki, ticarət, idxal-ixrac əməliyyatları, sərmayə sahələri və şirkətlərimizin Xorvatiyada layihələrdə iştirakı bizim üçün olduqca çox maraqlıdır.

Enerji siyasəti ilə bağlı bir neçə məqamı diqqətinizə çatdırıram. Çünki bu, artıq getdikcə bizim birgə gündəliyimizə daxil olan məsələdir. Azərbaycan ilə Xorvatiya arasında Anlaşma Memorandumu imzalanıb. Bu sahədə "Cənub" Qaz Dəhlizinin genişləndirilməsi, İon və Adriatik dənizləri arasında kəmərin inşası Azərbaycana imkan yaradacaq ki, biz xorvat bazarına, eyni zamanda, geniş Balkan bazarına daxil ola bilək və həmin ölkələr də Azərbaycandan təbii qaz alaraq, yeni mənbə əldə etsinlər.

Bizim təsdiq edilmiş qaz ehtiyatımız 2,5 trilyon kubmetrdən çoxdur. Bu ehtiyatlar artacaq. Çünki biz hələ də kəşfiyyat işləri ilə məşğul oluruq. Bu ehtiyatların şaxələndirilmiş şəkildə ixracına nail olmaq üçün bizim müxtəlif istiqamətlərdə qazı nəql edən bir neçə kəmərimiz var. Əsas marşrut isə hazırda inşa edilir. Bu ümumi layihə "Cənub Qaz Dəhlizi" adlanır. Buraya dörd layihə daxildir və hər biri hazırda icra mərhələsindədir. "Şahdəniz-2" qaz yatağında, - bu, dünyanın ən böyük qaz yataqlarından biridir, - hasilat artırılıb və biz burada ikinci fazanın icrasına başlayacağıq. Bununla yanaşı, Avropa istiqamətində üç qaz kəməri inşa edilir. Onun sonuncu mərhələsi Trans-Adriatik qaz kəməri sizin regiona yaxındır. Həmin qaz kəmərinin Xorvatiyaya və digər qonşu dövlətlərə uzadılması ilə məşğul ola bilərik. Bunu müzakirə edəcəyik. Ümid edirəm ki, artıq biz tezliklə danışıqların fəal fazasına başlayacağıq".

Ölkə başçısı çıxışında Azərbaycanda ümumi vəziyyətlə bağlı məsələlərə də toxunub: "Bildiyiniz kimi, neftin qiymətinin kəskin şəkildə düşməsi bizim gəlirlərimizi azaltmışdır. Eyni zamanda, biz builki büdcəmizdə neftin bir barrelinin qiymətini 25 dollar səviyyəsində təsbit etmişik. Bu gün artıq qiymət iki dəfə bahadır. Düşünürəm ki, biz bu vəziyyətdən minimal ziyanla çıxacağıq.

Bizim şaxələndirmə siyasətimiz var. Uzun illərdir bunu həyata keçiririk. Bunun sayəsində məhz neft bizim ümumi daxili məhsulumuzun 33 faizini təşkil edir. Biz ümumi daxili məhsulumuzu şaxələndirməyə nail olmuşuq və neftin qiymətlərindən asılılığımızı azaltmışıq.

Ümumiyyətlə, ölkəmizdə iqtisadi artımla bağlı çox müsbət ab-hava var. Biz qonşularımızla olduqca fəal şəkildə çalışırıq. Müxtəlif nəqliyyat layihələrinin həyata keçirilməsi nəticəsində biz qlobal nəqliyyat qovşağına çevriləcəyik. Bildiyiniz kimi, bunların biri artıq yekunlaşır.

Digər layihənin icrasına bu il başlanmışdır. Artıq bu istiqamətdə sərmayələrin qoyuluşu başlamışdır. Bu, Asiyadan, yəni, Hindistandan, Pakistandan, Fars körfəzindən, İrandan, Azərbaycandan, Rusiyadan Şimali Avropaya uzanan Şimal-Cənub nəqliyyat dəhlizi layihəsidir. Bu da bizə imkan verəcək ki, on milyonlarla ton yükü öz ərazimizdən nəql edək. Bu da hazırda mövcud olan marşrutlardan ən qısasıdır.

Hazırda Azərbaycandakı mövcud sərmayə mühiti, bütün sərmayələr dövlət tərəfindən qorunur. Ölkəmizdə olduqca sabit iqtisadi vəziyyət var".

Bundan sonra Xorvatiyanın Prezidenti xanım Kolinda Qrabar-Kitaroviç çıxış edib.

Sonra Azərbaycanın biznes və investisiya imkanları xorvat iş adamlarına təqdim edilib, həmçinin Xorvatiyanın biznes mühiti və iş adamları arasında əlaqələrin genişləndirilməsi istiqamətlərinə dair məlumat verilib, iş adamları qarşılıqlı fəal əməkdaşlığa dəvət olunub.

# Prezident İlham Əliyev səfirin etimadnaməsini qəbul edib



Prezident İlham Əliyev Şri-Lanka Demokratik Sosialist Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Yakupitiya Kuruppu Araççic Rohanacitin etimadnaməsini qəbul edib.

Yakupitiya Kuruppu Araççic Rohanacit etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Səfir Yakupitiya Kuruppu Araççic Rohanacit Şri-Lanka Demokratik Sosialist Respublikasının Prezidenti Maitripala Sirisenanın və Baş nazir Ranil Vikremesingenin salamlarını Prezident İlham Əliyevə çatdırdı. Ölkələrimiz arasında mədəni sahədə əlaqələrin mövcud olduğunu deyən səfir bu sahədə əməkdaşlığın daha da inkişaf etdirilməsinin önəmini vurğuladı.

Azərbaycan ilə Şri-Lankanın dost ölkələr olduğunu deyən dövlətimizin başçısı hər iki ölkənin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq etdiyini qeyd etdi. Prezident İlham Əliyev ölkələrimiz arasında qarşılıqlı maraq doğuran bir sıra sahələrdə ikitərəfli əlaqələrin inkişaf etdirilməsinin vacibliyini vurğuladı. İqtisadi sahədə əməkdaşlığa toxunan dövlətimizin başçısı bu istiqamətdə ticarət dövriyyəsinin həcminin artırılmasının qarşıda duran ən mühüm məqsəd olduğunu dedi. Prezident İlham Əliyev Azərbaycan-Şri-Lanka əlaqələrinin inkişaf etdirilməsi baxımından səfirin ölkəmizdəki diplomatik fəaliyyətinin uğurlu olacağına ümidvar olduğunu bildirdi.

# 2008-ci il 24 oktyabr tarixdə yenidən Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Əliyevin təntənəli andiçmə mərasimi keçirilmişdir

Ulu Öndər Heydər Əliyevin bütün uğurların fövqündə duran məslək, milli ideya və qüdrətli məfkurə – azərbaycançılıq ideologiyası – milli-mənəvi dəyərlərin qorunması, təbliğ edilməsi sahəsində irəliləyişlərin rəhni baxımından mükəmməl bir ideologiya və dəyərli ideya kimi Azərbaycan reallığında bərqərar olmuş və Ulu Öndərin layiqli siyasi varisi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir. İlham Əliyevin ağlı, idrakı, mənliyi, tolerantlığı, humanistliyi, təşkilatçılığı vətənpərvərliyi özünə böyük nüfuz qazandırmışdır.

Azərbaycan xalqı qarşısındakı xidmətləri nəzərə alınaraq İlham Əliyev 2003-cü ildə Azərbaycan Respublikasının Baş naziri təyin olunmuşdur. O, 2003-cü ilin Prezident seçkilərində parlaq qələbə qazanaraq xalqın iradəsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

Prezident İlham Əliyev Azərbaycan xalqının dahi oğlu Heydər Əliyevin demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu siyasətini uğurla davam etdirir. Onun rəhbərliyi ilə ölkədə iqtisadi islahatlar daha da sürətlənmiş, xüsusi prezident fərmanı ilə 2004-2008-ci illərdə regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramı qəbul olunmuşdur. Prezident İlham Əliyev ölkədə İnsan haqları və azadlıqlarının daha dolğun təmin olunmasını daim diqqət



mərkəzində saxlayır. O, Heydər Əliyevin Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin qorunub saxlanılması və daha da inkişaf etdirilməsi kursunu uğurla həyata keçirir. Onun «Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında» və «Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında» sərəncamları (2004,12 yanvar), Milli Ensiklopediyanın nəşrinə rəhbərliyi şəxsən öz üzərinə götürməsi və bununla bağlı imzaladığı sərəncamlar, alimlərə elmi dərəcələrə görə verilən əlavə əmək haqqını, tələbələr, magistrlər və aspirantların təqaüdlərini dəfələrlə artırması milli-mənəvi və ümumbəşəri dəyərlərə dövlət qayğısının parlaq təzahürləridir. İlham Əliyev Azərbaycan xalqının tarixi keçmişinə xüsusi qayğı və diqqət göstərir. Prezident İlham Əliyevin qətiyyətli və məqsədyönlü fəaliyyəti nəticəsində Heydər Əliyevin xarici siyasət kursunun həyata keçirilməsində, o cümlədən Azərbaycanın ərazi bütövlüyünü pozmuş erməni işğalçılarının təcavüzkar mövqeyinin beynəlxalq aləmdə ifşa olunmasında mühüm uğurlar qazanılmaqdadır. Geniş dünyagörüşünə, dərin və hərtərəfli biliyə, yüksək mədəniyyətə malik olan İlham Əliyev müasir və çevik siyasətçi kimi dünyada böyük hörmət və nüfuz qazanmışdır. O, sürətlə dəyişən çağdaş dünyada, qloballaşma və inteqrasiya proseslərində, bütün beynəlxalq görüşlərdə və apardığı yüksək səviyyəli danışıqlarda Azərbaycanın mənafelərini bütün sahələrdə uğurla müdafiə edir. İlham Əliyevin uğurlu xarici siyasəti sayəsində Azərbaycanın beynəlxalq və regional problemlərin həllində də rolu və nüfuzu getdikcə artır.

Azərbaycan Prezidenti İlham Əliyev bir çox ölkənin və beynəlxalq təşkilatların fəxri adları və mükafatlarına layiq görülmüş, AŞPA-nın fəxri üzvü diplomu və medalı ilə təltif olunmuşdur.

Prezident İlham Əliyevin həyata keçirdiyi müdrik daxili islahatlar və uzaqgörən, məqsəqyönlü xarici siyasət sayəsində bu gün Azərbaycan Cənubi Qafqazda lider dövlətdir.

## İlham Əliyev Kanadanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



Prezident İlham Əliyev Kanadanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kristofer Con Kuterin etimadnaməsini qəbul edib.

Səfir Kristofer Con Kuter fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Kristofer Con Kuter etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Səfir Kristofer Con Kuter paytaxtımızın inkişafının onda dərin təəssürat yaratdığını məmnunluqla qeyd etdi. Kristofer Con Kuter Kanadanın bir sıra mühüm şirkətlərinin Azərbaycanda müxtəlif sahələrdə, o cümlədən yüksək texnologiyalar, nəqliyyat, turizm sahələrində fəaliyyət göstərdiklərini qeyd etdi. Azərbaycanlı tələbələrin Kanada universitetlərində təhsil aldıqlarını məmnunluqla qeyd edən Kristofer Con Kuter ölkələrimiz arasında təhsil sahəsində əməkdaşlığın daha da genişləndirilməsinin önəmini vurğuladı.

Kanadalı diplomat ölkələrimiz arasında əlaqələrin gücləndirilməsi üçün səylərini əsirgəməyəcəyini bildirdi.

Kanada şirkətlərinin uzun illər Azərbaycanda fəaliyyətinə toxunan dövlətimizin başçısı həyata keçirilən birgə layihələrin əhəmiyyətini qeyd etdi.

Prezident İlham Əliyev Bakıda fəaliyyət göstərən Kanada şirkətlərinə məxsus beşulduzlu iki otelin – "Four Seasons" və "Fairmont" otellərinin regionda ən yaxşı otellərdən olduqlarını bildirdi. Dövlətimizin başçısı "Fairmont" otelinin yerləşdiyi müasir memarlıq üslubunda inşa edilən "Alov qüllələri" kompleksinin Bakının yeni simvollarından biri olduğunu dedi.

Prezident İlham Əliyev Kanada şirkətləri ilə əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.


BİNƏQƏDİ

Təsisçi:
**Binəqədi Rayon İcra Hakimiyyəti**

Baş redaktor:
**Rüfət Mərdanov**

Ünvan:
**AZ1130, Bakı, Binəqədi rayonu,**
**Nizami Nərimanov küçəsi, 75**

Tel.: **(012) 563 57 28**

E-mail: **bineqedi-qazet@mail.ru**

Qeydiyyat nömrəsi: **55** | VÖEN: **1002874841**

"Binəqədi" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Tiraj: **2000** | Qiyməti: **40 qəpik**


# Heydər Əliyev Mərkəzində Ümumdünya Ərzaq Gününə həsr olunmuş tədbir keçirilib

### Heydər Əliyev Fondunun vitse-prezidenti, FAO-nun xoşməramlı səfiri Leyla Əliyeva tədbirdə iştirak edib

Oktyabrın 27-də Heydər Əliyev Mərkəzində IDEA İctimai Birliyinin, Kənd Təsərrüfatı Nazirliyinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı – FAO-nun birgə təşkilatçılığı ilə Ümumdünya Ərzaq Gününə həsr olunmuş tədbir keçirilib.

Tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri, FAO-nun xoşməramlı səfiri Leyla Əliyeva iştirak edib.

Leyla Əliyeva çıxışında qeyd edib ki, bu tədbir dünyanın diqqətini aclıq və ərzaq təhlükəsizliyi kimi çağırışlara cəlb etmək üçün böyük imkandır. Builki ərzaq gününün mövzusuna toxunan Leyla Əliyeva vurğulayıb ki, FAO-nun xoşməramlı səfiri və ətraf mühitin qorunması sahəsində yorulmaz fəal, ən əsası dünyanın sakini kimi bu məsələyə çox həssas yanaşır. "Dəyişən iqlimin yeni reallığı ilə əlaqədar biz ərzağı istehsal və istehlak etməyimizin tərzini əsaslı şəkildə dəyişməliyik", - deyən Leyla Əliyeva Paris İqlim Sazişinin və 2030-cu ilə qədər olan dövrdə Davamlı İnkişaf Gündəliyinin əhəmiyyətini vurğulayıb.

"Əgər biz tədricən artan dünya əhalisinin ərzaq təhlükəsizliyini təmin etmək istəyiriksə, kənd təsərrüfatında dayanıqlılıq, məhsuldarlıq və davamlı inkişafa nail olmalıyıq", - deyən IDEA İctimai Birliyinin rəhbəri iqlim dəyişikliyinin ekosistemə və kənd əhalisinə daha çox təsir etdiyini söyləyib. Bu mənada, kənd təsərrüfatı sistemlərini dəyişdirmək və onlara yeni istiqamət vermək üçün FAO-nun iqlim əsaslı ağıllı kənd təsərrüfatı yanaşmasının bütün dünyada tətbiqinin vacibliyini qeyd edib. Leyla Əliyeva rəhbərlik etdiyi IDEA İctimai Birliyinin fəaliyyətindən, ötən beş ildə görülən tədbirlərdən danışıb, ərzaq təhlükəsizliyi və ətraf mühitin qorunmasında xüsusi əhəmiyyət kəsb edən yeni layihə barədə məlumat verib.

Heydər Əliyev Fondunun vitse-prezidenti deyib: "Dəniz mühitini yaşat-




mağa və ondan asılı olan kənd icmalarına yardım göstərilməsinə töhfə vermək məqsədilə göstərdiyimiz səylər sayəsində IDEA bu yaxınlarda Kür çayının deltasının çoxtərəfli təmizlənməsi layihəsini irəli sürüb. Bu layihə nəyə görə çox vacibdir? İlk olaraq onu bildirmək istərdim ki, Kür qərb sərhədlərimizdən başlayaraq Xəzər dənizinə qədər təxminən min kilometri qət edir və onun sahillərində yaşayan insanların həyatı üçün böyük əhəmiyyət daşıyır. Bundan əlavə, Kür çayı dünyada ən qədim və nadir balıq növü olan Xəzər nərə balığının artmasının əsas sahəsidir".

Yeni layihənin ətraf mühit və yerli əhali üçün faydalı olacaq balıq ehtiyatlarının, suyun keyfiyyətinin və bütövlükdə ekologiyanın yaxşılaşdırılması məqsədini güddüyünü bildirən Heydər Əliyev Fondunun vitse-prezidenti ərzaq çatışmazlığından çox sayda insanın əziyyət çəkdiyini, bunun QİÇS, malyariya və vərəm kimi xəstəliklərin ümumi sayından daha çox insanı tələf etdiyini vurğulayıb.

Sonda Leyla Əliyeva deyib: "İşimizlə, ümidlə, inamla, nəzakətlə və sevgi ilə biz bütün problemləri həll edə və daha parlaq gələcək qura bilərik".

Tədbirin əhəmiyyətinə toxunan ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Bağırov iqlim dəyişikliyi, ərzaq təhlükəsizliyi və təminatı məsələlərinin indi hamını narahat etdiyini vurğulayıb. Nazir iqlim dəyişikliyindən ən çox kənd təsərrüfatı sahəsinin ziyan gördüyünü, ölkəmizdə son illərdə investisiyalar sayəsində su ehtiyatlarının artdığını deyib, ətraf mühitin çirkləndirilməsinin qarşısını almaq üçün görülən işlərdən danışıb, alternativ enerjidən istifadə və ağacəkmə kampaniyaları nəticəsində Azərbaycanda meşə sahələrinin ərazisinin xeyli artdığını vurğulayıb. Nazir bildirib ki, ölkəmizdə atmosferə atılan zərərli qazların miqdarı xeyli azalıb. Dörd külək, dörd günəş elektrik stansiyası quraşdırılıb. Hədəfimiz gələcəkdə 25 faiz enerjini alternativ mənbələrdən istehsal etməkdir. H.Bağırov son on beş ildə ölkəmizdə 144 min hektarda 100 milyondan çox ağac əkildiyini diqqətə çatdırıb.



FAO-nun Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə Ofisinin rəhbəri Mələk Çakmak təmsil etdiyi qurumun yaranma tarixi və missiyasından bəhs edib. Vurğulayıb ki, iqlim dəyişikliyini həll etmədən yoxsulluq və aclığa qalib gəlmək olmaz. Bu məsələdə səyləri birləşdirmək vacibdir. O deyib ki, ehtimallara görə, dünya əhalisinin sayı 2050-ci ilə qədər 9,6 milyard nəfərə çatacaq. Bununla əlaqədar olaraq, FAO hesab edir ki, kənd təsərrüfatı məhsullarının istehsalı 2050-ci ilədək 60 faiz artmalıdır. Bu məsələdə ən böyük problemlərdən biri isə iqlim dəyişikliyi ola bilər. Ona görə də builki Ümumdünya Ərzaq Gününün mövzusu "İqlim dəyişir: ərzaq və kənd təsərrüfatı da dəyişməlidir" seçilib. Dünyada artıq 177 dövlət İqlim Dəyişikliyi üzrə Paris Sazişini imzalayıb və 2016-cı il iqlim üçün fəaliyyət ilidir. Eyni zamanda, dünyada aclığın tamam aradan qaldırılmasına nail olmaq məqsədilə hədəf il olaraq 2030-cu il müəyyən edilib.

Sonra FAO-nun baş direktoru Joze Qratsiano da Silvanın Ümumdünya Ərzaq Gününə dair videomesajı nümayiş olunub.

Tədbir "İqlim dəyişikliyi, ərzaq təhlükəsizliyi və kiçik ailə təsərrüfatları" mövzusunda panel müzakirələrlə davam edib.

Kənd təsərrüfatı nazirinin müavini Seyfəddin Talıbovun sədrliyi ilə keçən panel iclasda Ekologiya və Təbii Sərvətlər, Kənd Təsərrüfatı nazirliklərinin, "ADA" Universitetinin və FAO-nun nümayəndələri iştirak ediblər. Müzakirələr iqlim dəyişikliyinin ölkədə ərzaq təhlükəsizliyinə və kiçik ailə təsərrüfatlarına təsiri, iqlim dəyişikliyinin kənd təsərrüfatına mənfi təsirləri ilə mübarizədə dövlətin, vətəndaş cəmiyyətinin və digər maraqlı tərəflərin üzləşdiyi çətinliklərin müəyyən edilməsi, FAO və digər əsas maraqlı tərəflərlə əməkdaşlığın genişləndirilməsi üzrə imkanların və mövzuların müəyyənləşdirilməsi və s. məsələləri əhatə edib.

# Möhkəm əsaslar üzərində yeni inkişaf xətti tutan müstəqil Azərbaycan

## Binəqədi rayonunda təşkil olunmuş bayram tədbirində ötən 25 ilə bir daha nəzər salındı






Oktyabrın 17-də Binəqədi Rayon İcra Hakimiyyətinin, YAP Binəqədi rayon təşkilatının, rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Bakı Atıcılıq Mərkəzində dövlət müstəqilliyinin bərpa olunmasının 25-ci ildönümünə həsr olunmuş "Müstəqilliyim, mənim yaşıdım" adlı bayram mərasimi keçirilib. Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, millət vəkilləri Məlahət İbrahimqızı, Madər Musayev, Kamaləddin Qafarov, Kamran Bayramov, Musa Qasımlı, Sevinc Fətəliyeva, rayon ictimaiyyəti, ziyalılar, YAP fəalları və gənclər iştirak ediblər.

Tədbir müstəqil Azərbaycanın dövlətçilik tarixini əks etdirən qədim bayraqların sərgisi ilə başlayıb. Sonra 25 il ərzində dövlətimizin əldə etdiyi uğurları özündə əks etdirən sərgiyə baxış keçirilib. Mədəniyyət və multikulturalizm, təhsil, səhiyyə, iqtisadiyyat, informasiya-kommunikasiya texnologiyaları, müdafiə sənayesi, kənd təsərrüfatı, gənclər və idman sahələrini, eləcə də dünyada Azərbaycan brendi olan və müstəqilliyimizin ən böyük nailiyyətlərindən biri kimi dəyərləndirilən "ASAN xidmət"in fəaliyyətini əhatə edən pavilyonlarla tanışlıq zamanı qonaqlara bu illər ərzində əldə olunan nailiyyətlər barədə ayrı-ayrılıqda müfəssəl məlumatlar verilib.

Tədbirdə çıxış edən Mübariz Qurbanlı bildirib ki, Azərbaycan xalqının əldə etdiyi ən böyük tarixi nailiyyət onun müstəqilliyidir: "Təəssüf ki, o dövrdə müstəqilliyimizi itirmək təhlükəsi ilə üz-üzə qalməşdıq. Lakin xalqın təkidi ilə yenidən hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyevin siyasi təcrübəsi nəticəsində biz müstəqilliyi qoruyub saxlaya bildik. Məhz Heydər Əliyevin zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı, Vətənə olan tükənməz sevgisi dövlət müstəqilliyimizi təhlükədən xilas etdi, Azərbaycan Respublikası möhkəm əsaslar üzərində yeni inkişaf xəttini tutdu. Bunun nəticəsidir ki, bu gün ölkəmiz həm siyasi, həm də iqtisadi cəhətdən dünyanın qüdrətli dövlətlərindən birinə çevrilib.










Dövlət müstəqilliyinin bərpa olunmasının 25-ci ildönümü münasibətilə tədbir iştirakçılarına səmimi təbriklərini çatdıran Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov Azərbaycanın müstəqil dövlət kimi möhkəmlənməsinin əsasının ulu öndər Heydər Əliyev tərəfindən qoyulduğunu və bu gün möhtərəm Prezident İlham Əliyevin məqsədyönlü və ən əsası, dövlətin və xalqın maraqlarına söykənən müdrik siyasəti nəticəsində ölkəmizin bütün sahələrdə böyük uğurlara imza atdığını vurğulayıb. RİH başçısı qeyd edib ki, müstəqilliyimizin siyasi və iqtisadi sütunları getdikcə möhkəmlənir, müstəqilliyin taleyini müəyyənləşdirən əsas amillər qorunub saxlanılır, inkişaf etdirilir. Dövlətçiliyin möhkəmləndirilməsinə, iqtisadiyyatın inkişafına, milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına eyni dərəcədə diqqət yetirilir.

Bayram təbriklərindən sonra müxtəlif sahələrdə rayonun ictimai-siyasi həyatında öz fəaliyyətləri ilə fərqlənən şəxslərə RİH başçısının Fəxri fərmanları təqdim olunub. Tədbir çay süfrəsi ətrafında rayonun yaradıcı kollektivlərinin ifasında bayram konserti ilə davam etdirilib.

# Gənclərə müasir idarəetmə üsullarını mənimsəmək imkanı yaradılır

Bir sıra layihələrdə ilklərə imza atan və uğur qazanan Binəqədi Rayon İcra Hakimiyyəti yerli icra orqanları arasında ilk dəfə olaraq "ASAN könüllüləri"nin RİH-də təcrübə keçməsinə hərtərəfli şərait yaradıb. "ASAN" School" könüllülük proqramı çərçivəsində həyata keçirilən bu təcrübə müddətində gənclər müasir idarəetmə üsulları ilə tanış olmaq, müxtəlif tədbirlərin, layihələrin təşkilatçılığı işində iştirak etmək və təcrübə əldə etmək imkanı qazanırlar.





Oktyabrın 25-də Binəqədi Rayon İcra Hakimiyyətində təcrübə keçməyə başlayan "ASAN Könüllüləri Gənclər Təşkilatı"nın Master-2 layihəsi çərçivəsində 5-ci qrupun üzvləri ilə görüş keçirilib. Tədbirdən əvvəl könüllü gənclər YAP Binəqədi rayon təşkilatının inzibati binası, Heydər Əliyev adına Mədəniyyət və İstirahət Parkı, Binəqədi RİH başçısı Aparatının inzibati binası ilə tanış olublar.

Tanışlıqdan sonra "ASAN könüllüləri" ilə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Aygün Əliyevanın görüşü keçirilib. RİH başçısının müavini Prezident İlham Əliyevin tapşırığı əsasında yaradılmış və qısa müddət ərzində vətəndaşlar arasında böyük populyarlıq qazanmış "ASAN xidmət"in ölkədə korrupsiyaya qarşı mübarizə sahəsində əhəmiyyətindən və bütövlükdə məmur-vətəndaş münasibətlərində şəffaflığın təmin olunmasındakı rolundan danışıb, gənclərin bu işə könüllü qoşulmasını yüksək qiymətləndirib. Qeyd olunub ki, vətəndaş məmnunluğunun təmin edilməsi məqsədilə yaradılmış "ASAN xidmət" təkcə Azərbaycanda deyil, ölkə hüdudlarından kənarda, beynəlxalq miqyasda örnək kimi qəbul olunur. A.Əliyeva ölkəmizdə gəncliyin inkişafı, gənclərin dünya birliyinə inteqrasiyası və bu istiqamətdə əhəmiyyətli tədbirlərin keçirilməsinin dövlət siyasətinin prioritetlərindən olduğunu qeyd edib, "ASAN könüllüləri"nin icra hakimiyyətində əldə edəcəkləri təcrübənin gənclərin gələcək karyeralarında müsbət rol oynayacağına əminliyini ifadə edib.

Görüşdə çıxış edən "ASAN xidmət"in İnsan resursları və təlim şöbəsinin əməkdaşı Əsli İbrahimli "ASAN Könüllüləri"nin Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatında keçəcəyi iş təcrübəsinin yerli icra hakimiyyətləri ilə ilk əməkdaşlıq olduğunu deyib.

Sonra "ASAN könüllüləri" ilə çay süfrəsi ətrafında səmimi söhbət davam etdirilib. Qeyd edək ki, oktyabr ayının 26-dan etibarən 10 nəfər gəncdən ibarət "ASAN könüllüləri" Binəqədi RİH başçısı Aparatında iki aylıq iş təcrübəsinə başlayıb, onlar peşə istiqamətlərinə uyğun olaraq, öz istəklərinə əsasən müvafiq şöbələr üzrə bölüşdürülüblər.



# Qəsəbə sakinləri ilə səyyar görüş

Oktyabrın 14-də 115 saylı tam orta məktəbin akt zalında Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərovun və Milli Məclisin deputatı Kamaləddin Qafarovun M.Ə.Rəsulzadə qəsəbəsi sakinləri ilə növbəti görüşü keçirilib. Tədbirdə rayon rəhbəri ilə yanaşı, RİH başçısının müavinləri, Aparatın şöbə müdirləri, məsul işçiləri, hüquq-mühafizə orqanlarının, dövlət idarə, müəssisə və təşkilatlarının, xidmət sahələrinin rəhbərləri və sakinlər iştirak ediblər.

Tədbirdə çıxış edən Xaləddin İsgəndərov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkədə abadlıq və quruculuq, həmçinin sosial-iqtisadi sahədə əldə edilmiş nailiyyətlər barədə görüş iştirakçılarına ətraflı məlumat verib. Bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmiz böyük iqtisadi uğurlara imza atıb, artıq Azərbaycan öz iqtisadi göstəricilərinə görə inkişaf etmiş dövlətlər sırasındadır. İcra hakimiyyətinin başçısı Azərbaycanın digər bölgələrində olduğu kimi, Binəqədi rayonunda da genişmiqyaslı quruculuq işlərinin həyata keçirildiyini tədbir iştirakçılarının diqqətinə çatdırıb: "Rayonun digər ərazilərində olduğu kimi, Rəsulzadə qəsəbəsində də xeyli abadlıq-quruculuq işləri görülmüşdür. Amma buna baxmayaraq, hələ də bir sıra problemlər mövcuddur və bütün bunlar mərhələli şəkildə aradan qaldırılacaq. Hazırda sakinlərin əsasən istilik və digər mövsümi problemlərlə bağlı çətinlikləri olduğunu bilirik, bu istiqamətdə işlərimizi davam etdiririk".

Tədbirdə çıxış edən qəsəbə sakinləri abadlıq-quruculuq işlərinə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər və onları narahat edən bəzi nöqsan və çatışmazlıqların aradan qaldırılmasını rayon rəhbərliyindən xahiş ediblər. İcra hakimiyyətinin başçısı sakinlər tərəfindən qaldırılan məsələlərin həlli ilə əlaqədar aidiyyəti qurum rəhbərlərinə tapşırıqlar verib. Millət vəkili Kamaləddin Qafarov da səsləndirilən bir sıra məsələlərə müvafiq izahatlar verərək, onların həllinə köməklik göstərəcəyini bildirib.

Görüşün sonunda rayonun ictimai-siyasi həyatında fərqlənən bir neçə şəxs RİH başçısının "Təşəkkürnamə"si ilə təltif olunub.



# Sosial şəbəkələrdə aktivliyin artırılması ilə bağlı iclas keçirilib



Oktyabrın 26-da YAP Binəqədi rayon Təşkilatında sosial şəbəkələrdə aktivliyin artırılması istiqamətində iclas keçirilib.

İclasda YAP Binəqədi rayon Təşkilatının sədri Ramiz Göyüşov, Aparat rəhbəri Sevinc Abdullayeva, Binəqədi rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Leyla Kərimova, rayon icra nümayəndələrinin, bələdiyyələrin səhifə adminləri və YAP-nın fəal gəncləri iştirak ediblər.

İlk öncə iclası açıq elan edən YAP Binəqədi rayon Təşkilatının sədri Ramiz Göyüşov bu gün sosial şəbəkələrin əhəmiyyəti haqqında geniş məlumat verib və Binəqədi rayonunda gənclərin bu sahədə daha da aktivliyinin təmin edilməsi üçün işlərin təkmilləşdirilməsini diqqətə çatdırıb.

Daha sonra çıxış edən Binəqədi rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Leyla Kərimova sosial şəbəkələrdə aktivliyin artırılması istiqamətində Binəqədi rayonunda yaradılan mobil şəbəkənin əhəmiyyəti və bu sahədə gələcək də görüləcək işlər haqqında məlumat verib.

Çıxışlardan sonra YAP Binəqədi rayon Təşkilatı Gənclər Birliyinin sədri Mahmud Məmmədzadə və fəal gənc Leyla Quliyeva rayonda sosial şəbəkələrdə gənclər üçün yeni yaradılan mobil qrup və həmin qrup çərçivəsində görüləcək təkliflər ətrafında məlumatları diqqətə çatdırıb.

Sonra iclas gənclərin diskussiyası ətrafında davam etdirilib.

# Azay Quliyevin seçiciləri ilə növbəti görüşü



Millət vəkili Azay Quliyev YAP Binəqədi rayon təşkilatının inzibati binasında seçiciləri ilə növbəti görüşünü keçirib. Seçicilər məşğulluq, nəqliyyat, mənzil-kommunal məsələləri və müxtəlif dövlət qurumları ilə bağlı müraciətlərini millət vəkilinə çatdırıblar.

İrəli sürülən məsələlərin bəzilərini yerindəcə həll edən Azay Quliyev, digərlərinin aradan qaldırılması istiqamətində müvafiq qərarlar qəbul edib. Görüşdə Binəqədi rayon İcra Hakimiyyətinin nümayəndələri də iştirak ediblər.

# Uşaqlar Azərbaycan Dövlət Kənd Təsərrüfatı Muzeyində



Oktyabrın 26-da Binəqədi rayonunun balaca fidanları rayon ərazisində yerləşən Azərbaycan Dövlət Kənd Təsərrüfatı Muzeyini ziyarət ediblər.

Muzeyin əməkdaşları muzeyin tarixi barədə danışaraq burada qurulan guşə və eksponatlar haqqında uşaqlara ətraflı məlumat veriblər. Bildirilib ki, muzey Azərbaycan Respublikasının kənd təsərrüfatının inkişafının tarixinə və onun gerçək vəziyyətinin işıqlandırılmasına həsr olunub.

Muzeyin ekspozisiyasında Azərbaycanın kənd təsərrüfatının müxtəlif sahələri: əkinçilik, heyvandarlıq, bağçılıq və s. müxtəlif çeşidli materiallar (sənədlər, fotoşəkillər) vasitəsi ilə öz əksini tapıb. Stasionar ekspozisiyanın tamaşaçılara nümayiş etdirilməsilə yanaşı muzey eyni zamanda geniş həcmli mühazirələr, sənədli filmlərin nümayişi, səyyar sərgilər və s. təşkil edir.

Daha sonra muzeydə olan guşələrdə müxtəlif nağıl personajlarının geyimlərində olan balaca fidanların fotosessiyası təşkil olunub. Muzeydəki sərgilənən eksponatlar uşaqların böyük marağına səbəb olub.

Qeyd edək ki, Kənd Təsərrüfatı Muzeyi Respublikanın qocaman muzeylərindəndir. 1924-cü ildə yaranan muzeydə 2 mindən çox eksponat qorunub saxlanılır. Burada elə qədim alətlər var ki, dünya üzrə yalnız Bakının Kənd Təsərrüfatı Muzeyində sərgilənir. Paytaxtın Binəqədi rayonunda yerləşən bu muzeyə giriş pulsuzdur. Muzeydə yaşı 1 əsrdən çox olan xeyli eksponat qorunub saxlanılır. Yun darağı isə ötən əsrlərdə heyvandarlığın inkişaf etdiyini göstərir. Kənd Təsərrüfatı Muzeyində eksponatlarla yanaşı, müxtəlif sahələri özündə əks etdirən şöbələr də fəaliyyət göstərir.



Kənd Təsərrüfatı Muzeyinin maraqlı guşələrindən biri də dağlıq ərazilərin əks olunduğu maketdir. Kənd həyatının kiçildilən maketini xatırladan muzeydə, həmçinin, 18-19-cu əsrdə yaşayan kəndlinin sadə məişət əşyaları, gildən və taxtadan hazırlanan qablar, nehrə, motal, alış-veriş zamanı istifadə olunan xurcunlar, cəhrə, torpaq şumlayan alət, həvəngdəstə, vəl, su daşı, dəmir kotan və digər alətlər var. Məlumat üçün bildirək ki, Kənd Təsərrüfatı Muzeyi dünyanın 5 ölkəsində Azərbaycan, Macarıstan, Birləşmiş Ştatlar, Çin və Bolqarıstanda fəaliyyət göstərir.

# Müstəqilliyimizin qorunub saxlanması əsas prioritetdir



Binəqədi rayonunda fəaliyyət göstərən 83 saylı məktəb-liseydə Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə "Müstəqil dövlətimizin qorunması mühüm şərtdir" mövzusunda tədbir keçirilib.

Tədbirdə Binəqədi RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Rauf Həsənov, 83 saylı məktəb-liseyin direktoru Nəbi Mahmudov, "Müharibədən zərərçəkən nəqliyyat işçiləri" İctimai Birliyinin sədri Xədicə Babayeva, layihənin eksperti Tahir Abbaslı mövzunun mahiyyəti barədə şagirdləri məlumatlandırıblar.

Tədbirdə xüsusi olaraq vurğulanıb ki, ulu öndərin milli maraqlara əsaslanmaqla həyata keçirdiyi çoxşaxəli siyasət strategiyası bu gün onun layiqli varisi - Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən inamla davam etdirilir.

# Rayonda gənclərin işlə təmin olunması diqqət mərkəzindədir



Qeyri-neft sektorunun və sahibkarlıq fəaliyyətinin inkişafı nəticəsində yeni iş yerlərinin yaradılması, o cümlədən "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 7 aprel tarixli 1941 nömrəli Sərəncamının icrası ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiya iclasında təsdiq edilmiş "İşaxtaran vətəndaşların özünüməşğulluq fəaliyyətinin təşkili Tələbləri" əsasında Bakı şəhərində və bölgələrdə məqsədyönlü işlər davam etdirilir. Belə ki, özünüməşğulluq proqramında iştirak etmək istəyən vətəndaşlar şəxsi biznesin qurulması və inkişaf etdirilməsi üzrə bilik və bacarıqlara yiyələnmələri üçün təlimlərə cəlb edilirlər. Qeyd edək ki, gənclərin məşğulluğunun təmin edilməsi Binəqədi rayonunda da diqqət mərkəzindədir.

Rayon məşğulluq mərkəzindən verilən məlumata görə, özünəməşğulluq fəaliyyətinin həyata keçirilməsi üçün Binəqədi rayonu üzrə təlimçilər seçilmiş, müvafiq təlim kurslarını başa vurduqdan sonra sertifikatla təmin olunmuş və fəaliyyətə başlamışlar.

Təlimçilərin özünəməşğulluq proqramına cəlb olunan vətəndaşları seçməsi və təlimlərin aparılması məqsədilə Binəqədi Gənclər evində tam şərait yaradılmış, iş otaqları ayrılmış və lazımi ləvazimatlarla təchiz olunmuşdur. Binəqədi rayon Məşğulluq Mərkəzində işaxtaran kimi qeydiyyatdan keçən və özünəməşğulluq proqramında iştirak etmək istəyən vətəndaşlar təlimçilər tərəfindən qəbul olunur və seçim aparılır. Seçim aparıldıqdan sonra vətəndaşları özünəməşğulluq fəaliyyətinə başlamaları üçün təlimlər təşkil olunacaqdır. Təlimləri müvəffəqiyyətlə başa vuran vətəndaşlar seçdikləri fəaliyyət növləri üzrə lazımi avadanlıqlarla təmin olunacaqlar. Özünəməşğulluq proqramının həyata keçirilməsində əsas məqsəd kiçik biznesin inkişaf etdirilməsi və gənclərin məşğulluğunun artırılmasıdır.

# Müstəqilliyə aparan keşməkeşli və şərəfli yol

Müstəqilliyimizin bərpa edilməsindən 25 il ötür. Həmin il oktyabrın 8-də işə başlayan Ali Sovetin növbədənkənar sessiyası dörd günlük müzakirədən sonra müstəqilliklə bağlı qərarı bir həftə sonraya saxlayıb. Nəhayət, 1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında tarixi sənəd qəbul edilib. Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktının lehinə Ali Sovetin 360 deputatından 258-i səs verib. Bu şərəfli günü yaşayan və müstəqillik Aktına səs verən deputatların biri də hazırda Binəqədi RİH yanında İctimai Şuranın sədri vəzifəsini yerinə yetirən Aslan Mehdiyevdir.

Həmin günləri qürurla xatırlayan A.Mehdiyev əməkdaşımızla söhbətində bildirib ki, müstəqillik Aktının qəbul edilməsi ilə bağlı məsələ hələ sentyabrın sonlarından başlayaraq deputatlar arasında geniş müzakirə edilirdi: “Həmin illər ölkədə baş verən hadisələrin gedişi ondan xəbər verirdi ki, böyük sovet imperiyası dağılmaq ərəfəsindədir. 90-cı illərin əvvəllərində SSRİ-nin demək olar ki, əksər respublikalarında millətlərin və xalqların azadlıq hərəkatı başladı. İmperiyanın siyasi beyin mərkəzi sovet hərb maşınının köməyi ilə müxtəlif bölgələrdə, o cümlədən Bakıda qanlı qırğınlar törətməklə SSRİ-yə süni nəfəs verməyə çalışırdı. Lakin bu mümkün olmadı, 1991-ci ilin avqustunda İttifaqın ləğv edilməsi haqqında qərar verildi və Sovetlər Birliyi dünya xəritəsindən silindi.

Amma bu o demək deyil ki, müstəqilliyimiz bizə asan başa gəlib. Müstəqilliyə gedən yol Azərbaycan üçün qətiyyən rahat olmayıb. 1988-ci ildə Qarabağda başlayan hadisələr Bakıda və bölgələrdə yüz minlərlə insanın iştirak etdiyi mitinqlərlə müşayiət olundu. Bu mitinqlərin əsas məqsədi Azərbaycanın müstəqilliyinin təmin edilməsi idi. Həmin vaxtlar mən Füzuli rayonunda icra hakimiyyətinin başçısı vəzifəsində işləyirdim. Rayon cəbhə xəttində yerləşdiyindən, demək olar ki, birbaşa hadisələrin içində idim. Erməni millətçiləri yaranmış vəziyyətdən istifadə edərək torpaqlarımızı ələ keçirməyə başlamışdılar. Ölkədə gərginlik hökm sürürdü. Xalq Cəbhəsi təzə yaranmışdı, Ali Sovetdə isə müxtəlif adlar altında bloklar fəaliyyət göstərirdi. Bir sözlə, 1988-91-ci illər Azərbaycan üçün çox keşməkeşli olub”.



Aslan müəllim söhbət zamanı o illərdə baş verən səsli-küylü hadisələrin bilavasitə iştirakçısı olduğunu vurğuladı: “1991-ci ilin mart ayında SSRİ-nin bütün respublikalarında Sovet İttifaqının saxlanılması ilə bağlı referendum keçirildi. Azərbaycan SSR Ali Sovetinin sessiyasında referendumla bağlı səsvermədə 365 deputatdan yalnız 43-ü SSRİ-nin saxlanmasının əleyhinə səs verdi. Onların arasında ulu öndər Heydər Əliyev də var idi. Bu hadisədən təxminən 7 ay sonra isə Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı müzakirəyə çıxarıldı. Ali Sovetdə 30-a qədər cəbhəçinin birləşdiyi “Demokratik Blok” səsvermənin baş tutmayacağından narahatlıq keçirirdi. Sessiyada gərginlik yaşanmışdı. Bəzi deputatlar sessiyaya qatılmadığı üçün səsvermənin adbaad keçirilməsi təklifi irəli sürüldü. Amma deputatların əksəriyyəti buna ehtiyac olmadığını bildirdilər. İki gün ərzində 32 maddənin hamısı ayrı-ayrılıqda müzakirə edilib səsvermə ilə qəbul edildi. Sessiyanın gedişi televiziya ilə birbaşa yayımlanırdı. Oktyabrın 18-də axşamüstü, nəhayət, tarixi an baş verdi. Azərbaycanın Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı bütövlükdə səsə qoyuldu. Sessiyada iştirak edən 258 nəfərin hamısı sənədin qəbuluna səs verdi. Səsvermənin nəticəsi ayaq üstə alqışlarla qarşılandı. Deyə bilərəm ki, Azərbaycanda ilk dəfə bütün siyasi qüvvələr arasında milli birlik məhz həmin gün - oktyabrın 18-də yaranıb. Hadisədən dərhal sonra Azərbaycanın müstəqilliyinin dünya birliyi tərəfindən tanınması prosesi başlandı. İlk olaraq Türkiyə, sonra Pakistan, Rumıniya Azərbaycanın müstəqilliyini tanıdığını elan etdi”.

Bu gün dövlətimizin etibarlı əllərdə olduğunu söyləyən keçmiş deputat Azərbaycanın əsl müstəqilliyinin məhz ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirdi: “1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə gələn Heydər Əliyev özü ilə bərabər Azərbaycana siyasi müdriklik gətirdi. Məhz onun zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı, vətənə olan tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Ümummilli lider ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi, siyasi və mənəvi-psixoloji gərginliyi aradan qaldırdı, Azərbaycanın dünyaya, dünyanın Azərbaycana gərəkli olduğunu sübut etdi. Bu gün ulu öndərin layiqli davamçısı möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi altında sürətlə inkişaf edən müstəqil dövlətimizin adı bütün dünyada hörmət və ehtiramla çəkilir”...

# İnşa yazı müsabiqəsinin qalibləri mükafatlandırılıb

Binəqədi Rayon İcra Hakimiyyəti, rayon Gənclər və İdman İdarəsi və Gənclərin “Tənhalara dayaq” İctimai Birliyinin təşkilatçılığı ilə “Gənclərin Qarabağ müharibəsi veteranları və şəhid ailələrinin üzvləri ilə görüşlərinin təşkili” layihəsi və 18 Oktyabr - Dövlət Müstəqilliyi günü münasibətilə orta ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri arasında “Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir” mövzusunda keçirilmiş inşa yazı müsabiqəsi qaliblərinin mükafatlandırması mərasimi keçirilib.



Tədbirdə Binəqədi RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Rauf Həsənov, rayon Gənclər və İdman İdarəsinin rəis müavini Sevinc Süleymanova, “Qarabağ müharibəsi əlilləri, veteranları və şəhid ailələri” İctimai Birliyinin rayon şöbəsinin sədri İlham Qayıbzadə, “Tənhalara Dayaq” İctimai Birliyinin sədri Xoşbəxt Seidova, məktəblərin direktor müavinləri və şagirdlər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Xoşbəxt Seidova Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının dəstəyi ilə reallaşan layihə haqqında ətraflı məlumat verib, əsas məqsədin yeniyetmə və gənclər arasında vətənpərvərlik ruhunun təbliği, vətənə sevgi və sədaqət hisslərinin aşılanması, milli qəhrəmanlarımız və şəhidlərimizin keçdiyi şərəfli döyüş yolu haqqında yeniyetmə və gənclərimizi məlumatlandırmaq olduğunu deyib.

Tədbirdə iştirak edən digər natiqlər belə layihələrin keçirilməsinin yeniyetmə və gənclərin vətənə sədaqət ruhunda böyüməsində, onlarda dövlət və vətən qarşısında vəzifələrinin layiqincə yerinə yetirilməsi sahəsində məsuliyyətin artırılması nöqteyi nəzərdən, böyük əhəmiyyət kəsb etdiyini vurğulayıblar. Məktəblilər adından çıxış edən inşa yazı müsabiqəsinin qalibi, 83 nömrəli məktəb-liseyin şagirdi Zəhra Həsənova hər bir xalq, millət üçün ən müqəddəs nemət olan azadlıq, müstəqillik və bu müstəqilliyi bizə bəxş edən tarixi şəxsiyyət, ümummilli lider Heydər Əliyevin rolundan söhbət açıb.

Sonda inşa yazı müsabiqəsinin iştirakçıları Fəxri Fərmanlarla mükafatlandırılıblar.

# Narkomaniyaya qarşı mübarizə tədbirləri gücləndirilir



N.Fərəczadə adına 100№-li tam orta məktəbdə “Narkomaniyaya “yox” deyək” adlı maarifləndirici tədbir keçirilib. Əvvəlcə şagirdlərin narkomaniyanın cəmiyyətə zərərlərini əks etdirən mövzuda çəkdiyi fotolardan ibarət rəsm sərgisi nümayiş olunub.

Tədbirdə çıxış edən Binəqədi Rayon Polis İdarəsinin 4-cü polis bölməsinin rəisi Etibar Balakişiyev bəşəriyyət üçün ən böyük bəlalardan olan narkomaniyanın törətdiyi fəsadlara qarşı mübarizənin bu gün xüsusilə aktual xarakter daşıdığını, narkomaniya əleyhinə aparılan tədbirlərin hər zaman ölkə rəhbərliyinin diqqət mərkəzində olduğunu və bu istiqamətdə mühüm tədbirlər həyata keçirildiyini bildirib.

Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Seymur Hacıyev xüsusilə gənclər üçün böyük təhlükə mənbəyi olan “ağ ölümə” qarşı həyata keçirilən genişmiqyaslı maarifləndirmə tədbirlərinin Binəqədi rayonunda da daimi xarakter daşıdığını deyib. Qeyd olunub ki, Binəqədi Rayon İcra Hakimiyyəti başçısı yanında fəaliyyət göstərən Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə komissiyaya rayonun hüquq-mühafizə orqanlarının, Gənclər və İdman İdarəsinin rəhbərləri, ictimaiyyət nümayəndələri daxil edilib. Təsdiq olunmuş tədbirlər planına uyğun olaraq, komissiyada mütəmadi olaraq narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı rayonda görülən işlər müzakirə olunur, hüquq-mühafizə orqanları tərəfindən qanunsuz dövriyyədən çıxarılmış narkotik vasitələrin ləğv olunması həyata keçirilir, məktəblilər, yeniyetmələr, şagird və tələbələr arasında maarifləndirmə işlərinə xüsusi fikir verilir.

Tədbirdə yekdilliklə bildirilib ki, narkomaniyaya qarşı cəmiyyətin bütün üzvləri fəal mübarizə aparmalı, yeniyetmə və gənclər arasında maarifləndirmə işləri mütəmadi xarakter almalıdır.

# Xeyirxah əməllər diqqətdən kənarda qalmır

**“18 Oktyabr – Dövlət Müstəqilliyi Günü” ilə əlaqədar Binəqədi Rayon İcra Hakimiyyəti tərəfindən rayonun ictimai və siyasi həyatında fəal iştirak edən bir qrup şəxs mükafatlandırılıb. Təltif olunan şəxslərlə görüşüb təəssüratlarını öyrəndik.**



**Məlahət İbrahimova, 11 saylı uşaq poliklinikasının baş həkimi:** “Artıq respublikamız 25 ildir ki, müstəqil dövlət kimi yaşayır və inkişaf edir. Ölkəmiz bu illər ərzində əzəmətli və möhtəşəm yol keçib. Dövlət Müstəqilliyi Günü ilə bağlı təltif olunanlar arasında mənim də adımın olduğuna çox sevinirəm. Ölkəmizdə bütün sahələr kimi, səhiyyə sahəsi də inkişaf yolundadır. Bu gün Azərbaycanın hər bir guşəsində vətəndaşlarımızın sağlam həyat tərzinə xidmət edən, müasir tələblərə cavab verən klinikalar və xəstəxanalar mövcuddur. Ulu öndər Heydər Əliyevin insan sağlamlığını cəmiyyətin sərvəti adlandırmışdır. Bu gün Azərbaycan səhiyyəsinə və tibb işçilərinə olan diqqət və qayğı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Son illər səhiyyə sisteminin inkişafında böyük irəliləyişlərə nail olunmuşdur. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə əhalinin, xüsusilə də uşaqların sağlamlığının qorunması, bir sıra xəstəliklərin qarşısının alınması istiqamətində böyük işlər görülmüşdür. Səhiyyə sahəsinə ayrılan büdcə ilbəil artmaqdadır. Azərbaycan Prezidentinin göstəriş və təşəbbüsü ilə yeni-yeni tibb müəssisələrinin yaradılması, mövcud olanların təmir-bərpası bu gün səhiyyə işçilərinə şərəfli peşələrini layiqincə yerinə yetirmək üçün geniş imkanlar yaratmışdır. Azərbaycan dövlətinin ümumi yüksəlişi, ölkə başçısının həyata keçirdiyi sosialyönümlü siyasət səhiyyəmizin bugünkü səviyyəsinin təməl daşıdır. Ölkə başçısının tapşırığına uyğun olaraq, Binəqədi rayonunda səhiyyə sahəsində xeyli işlər görülüb. Əhalinin sağlamlığının qorunması Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birbaşa nəzarətindədir”.



**Tünzalə Zeynalova, 283 saylı tam orta məktəbin direktoru:** “Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin zəngin nəzəri irsində və möhtəşəm fəaliyyətində təhsil məsələləri xüsusi yer tutub. Ulu öndərimiz ölkənin və xalqın taleyində, hərtərəfli tərəqqisində təhsilin xüsusi rolunu hər zaman vurğulamışdır. Heydər Əliyev tədris ocaqlarında, o cümlədən orta ümumtəhsil məktəblərində şagirdlərin bütün fənlər üzrə zəruri biliklərə yiyələnməsini zəruri hesab etmişdir. Ümummilli liderimiz təhsillə tərbiyənin, mükəmməl biliklə yüksək mənəviyyatın vəhdətini mühüm prinsip kimi əsaslandırmışdır. “Özünü müəllimliyə həsr etmiş insan ən şərəfli insandır”, -deyən dahi rəhbərimiz əsl pedaqoq olmaq, şagird və tələbələrə hərtərəfli bilik vermək, onları mənəvi amallara sədaqət ruhunda yetişdirməyin vacib olduğunu hər zaman vurğulamışdır. Azərbaycan müstəqillik qazandıqdan sonra təhsilimizin milli əsaslar üzərində yenidən qurulması, əsl inkişafa qovuşması da məhz Heydər Əliyev dühası sayəsində gerçəkləşmişdir. Görkəmli şəxsiyyət Heydər Əliyevin milli təhsil və tərbiyə məsələlərinə dair nəzəri konsepsiyası hər bir təhsil alanın, hər bir pedaqoqun, ümumiyyətlə, hər bir Azərbaycan vətəndaşının fəaliyyət devizi, həyat amalıdır.

Bu gün müstəqil Azərbaycanda ulu öndər Heydər Əliyevin siyasi kursu bütün sahələrdə uğurla davam etdirilir. Təhsil sahəsində həyata keçirilən böyük tədbirlər də bu siyasətin tərkib hissəsidir. Təhsillə bağlı dövlət tərəfindən qəbul olunan qərar və layihələr Azərbaycan təhsilinin dünyaya inteqrasiyasına, milli və mənəvi dəyərlər zəminində yüksəlişinə layiqincə xidmət etməkdədir.

Müstəqilliyimizin 25 illiyi ilə bağlı Binəqədi Rayon İcra Hakimiyyəti tərəfindən Fəxri fərmanla təltif olunmağıma görə qürur hissi duyuram. Bu, mənə göstərilən böyük etimad, fəaliyyətimə verilən yüksək qiymətdir. Yeri gəlmişkən, onu da deyim ki, məktəbimizin uğurları ildən-ilə artmaqdadır. Rəhbərlik etdiyim təhsil müəssisəsində olduqca perspektivli şagird heyəti var. Bir sıra layihələrə qoşularaq fəal iştirak edirik. Ötən tədris ilində məktəbimizin məzunları yüksək bal toplayaraq ali məktəblərə qəbul olunublar. Çalışacağıq ki, nailiyyətlərimiz bundan sonra da davamlı olsun”.



**Nəbi Mahmudov, 83 saylı məktəb-leseyin direktoru:** “Görkəmli dövlət xadimi Heydər Əliyevin fəaliyyətində təhsil məsələlərinin xüsusi yeri olub. Ulu öndərimiz təhsilə, gənclərin tərbiyəsinə ən mühüm sahə kimi baxıb. Ümummilli liderin böyük uzaqgörənliklə atdığı addımlardan biri də hələ ötən əsrin 70-ci illərində azərbaycanlı gənclərin hərbi təhsilə yiyələnməsi sahəsində sistemli tədbirlərin həyata keçirilməsi ilə bağlıdır. Azərbaycan müstəqillik qazandıqdan sonra təhsilimizin milli əsaslar üzərində yenidən qurulması, əsl inkişafa qovuşması da məhz Heydər Əliyev dühası sayəsində gerçəkləşdi. Belə ki, ölkəmiz müstəqillik əldə etdikdən sonra bütün sahələrdə olduğu kimi, milli təhsil sahəsində uğurlar əldə olunub. Respublikada təhsilin ən yüksək səviyyəyə çatdırılması məhz Heydər Əliyevin tövsiyələrinin, məsləhətlərinin, düşünülmüş addımlarının sayəsində mümkün olub. Rayonumuzda da təhsil sahəsinə xüsusi diqqətlə yanaşılır. İcra hakimiyyəti tərəfindən təhsilin maddi-texniki bazasının inkişaf etdirilməsi, yüksək səviyyəli təhsil mühitinin yaradılması üçün lazımi işlər görülür. Bizim məktəbimizin nailiyyətləri ilbəil artmaqdadır. Məktəb-liseyin məzunları yüksək bal toplayaraq ali təhsil ocaqlarına qəbul olunurlar. Çalışacağıq ki, göstərilən etimadı bundan sonra da doğruldaq”.



**Hüseyn Həsənov, “Altis Group of Company”nin baş direktoru:** “Ulu öndər Heydər Əliyevin siyasi, sosial-iqtisadi inkişaf kursunu böyük uğurla davam etdirən Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü islahatlar nəticəsində ölkəmiz yeni inkişaf mərhələsinə qədəm qoyub, bütün sahələrdə müsbət göstəricilərə imza atıb. Artıq dünya birliyində öz layiqli yerini tutan, dayanıqlı və davamlı iqtisadi inkişafa nail olan Azərbaycan dünyanın ən inkişaf etmiş ölkələrindən birinə çevrilmək hədəfinə doğru böyük inamla irəliləyir, ötən hər ay, hər il bütün sahələrdə əldə olunan uğurlarla tarixə düşür. Reallaşdırılan mühüm layihələr nəticəsində ölkəmizdə makroiqtisadi sabitlik qorunub saxlanılır, iqtisadiyyatın şaxələnməsi uğurla təmin olunur, özəl bölmənin, sahibkarlığın inkişafı üçün daha əlverişli biznes və investisiya mühiti formalaşdırılır. Azərbaycanda sahibkarlığın inkişafı iqtisadi siyasətin prioritet istiqamətlərindən birinə çevrilib. Son illər ölkəmizin dinamik inkişafında iqtisadiyyatın əsas hərəkətverici qüvvəsi olan özəl sektorun, kiçik və orta sahibkarlığın rolu böyükdür. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, son illərdə investisiyaların böyük əksəriyyəti özəl sektorlar tərəfindən qoyulan daxili investisiyalardır. Bu, həm də onu göstərir ki, Azərbaycan dövlətinin gücü artıb, özəl sektor, sahibkarlıq ölkəmizdə gedən uğurlu proseslərdən bəhrələnib.

Binəqədi rayonunda sahibkarlara xüsusi diqqətlə yanaşılır. Xüsusi vurğulamaq istərdim ki, Binəqədi rayonu Prezidentin sahibkarlıqla bağlı verdiyi bütün fərman və sərəncamların yerinə yetirilməsində fəallıq göstərir. Rayonumuzda sahibkarlarla keçirilən görüşlərdə qarşıya çıxan problemlər müzakirə olunur, onların həlli yolu axtarılır. Müstəqilliyimizin 25 illiyi ilə bağlı rayon icra hakimiyyəti tərəfindən Fəxri Fərmanla təltif olunmağımız bizi daha da ruhlandırdı. Hesab edirəm ki, bu, bizim kollektivimizin əməyinin bəhrəsidir. Çalışacağıq ki, bundan sonra da rayonumuzun və bütövlükdə ölkəmizin inkişafı naminə əlimizdən gələni əsirgəməyək”.

## Binəqədi Rayon İcra Hakimiyyəti yenə birinci olub

Oktyabrın 25-də Multimedia Mərkəzi informasiya açıqlığı üzrə mərkəzi və yerli icra qurumlarının növbəti Hesabatını və Reytinq Cədvəlini açıqlayıb.

Bu Monitorinq prosesində 68 Yerli icra hakimiyyəti qurumunun (şəhər və rayon icra hakimiyyətlərinin) rəsmi internet resursunun da monitorinqi aparılıb.

Monitorinqin nəticələrinə əsasən, yerli icra hakimiyyətləri arasında informasiya açıqlığı üzrə reytinq cədvəlində birinci yeri yenə də Binəqədi Rayon İcra Hakimiyyəti (24,7 %) tutub.




Multimedia Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz bildirib ki, 5 ay ərzində 70-dək mərkəzi icra orqanının və 68 yerli icra hakimiyyətlərinin rəsmi internet resursunun monitorinqi aparılıb. Rəsmi səhifələrin 60-dək parametr üzrə kəmiyyət və keyfiyyət kriteriyaları, sosial əhəmiyyətlilik səviyyəsi nəzərə alınmaqla informasiya açıqlığı vəziyyəti analiz olunub.

## Məktəblilər arasında inşa yazı müsabiqəsi



Binəqədi Rayon İcra Hakimiyyətinin dəstəyi, Binəqədi rayon Gənclər və İdman İdarəsi, Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının Gənclər Birliyi və Bakı Humanitar Kollecinin təşkilatçılığı ilə 18 Oktyabr - "Dövlət Müstəqilliyi Günü"nün 25-ci ildönümü münasibətilə orta ümumtəhsil məktəblərinin şagirdləri arasında "Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir" mövzusunda inşa yazı müsabiqəsi keçirilib. Qeyd edək ki, inşalar Binəqədi Rayon Gənclər və İdman İdarəsi tərəfindən hazırlanmış və kodlaşdırılmış xüsusi dəftərlərdə yazılır, Bakı Humanitar Kolleci tərəfindən təsdiq olunmuş münsiflər heyəti tərəfindən yoxlanılır.

Gənclər və İdman İdarəsinin rəis müavini Sevinc Süleymanova iştirakçıları müsabiqənin Əsasnaməsi ilə tanış etdikdən sonra müsabiqəyə start verilib. Rayon Gənclər Evində keçirilən inşa yazı müsabiqəsinin nəticəsinə görə, 83№-li məktəb-liseyin 10b sinif şagirdi Zəhra Həsənova 1-ci yerə layiq görülüb. 3 №-li tam orta məktəbin 10c sinif şagirdi Lumu İsrafilli və 102№-li tam orta məktəbin 11c sinif şagirdi Arzu Qəhrəmanova isə müvafiq olaraq 2-3-cü yerləri bölüşdürüblər.

## Şagirdlərə yol-davranış qaydaları aşılanır



Azərbaycan Respublikası Təhsil Nazirliyinin razılığına əsasən, "Həyat" Humanitar Dəstək İctimai Birliyinin Bakı şəhərinin orta ümumtəhsil məktəblərində cari ilin oktyabr-noyabr aylarında "Yol təhlükəsizliyi pasportunun yaradılması vasitəsilə məktəb icmasının yollarda davranış qaydalarının təkmilləşdirilməsi" layihəsi çərçivəsində Binəqədi rayonunda "Yol təhlükəsizliyinin təmin olunmasında yol təhlükəsizliyi pasportunun tətbiqi mühüm vasitə kimi" mövzusunda tədbir keçirilib.

Binəqədi rayonunda yerləşən orta məktəblərin təlim-tərbiyə işləri üzrə direktor müavinlərinin iştirak etdiyi seminarda RİH başçısı Aparatının İctimai- siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Rauf Həsənov, rayon Gənclər və İdman İdarəsinin rəisi Qüdsi Bayramov, Baş Dövlət Yol Polis İdarəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polkovnik Vaqif Əsədov, 46 nömrəli Məktəbdənkənar Tərbiyə İşi Mərkəzinin şöbə müdiri Fəridə Süleymanova, 276 nömrəli məktəb-liseyin direktoru Bəhram Şiriyev və "Həyat" Humanitar Dəstək İctimai Birliyinin sədri Azər Allahverənov tədbirdə çıxış edərək layihənin mahiyyəti barədə dinləyiciləri məlumatlandırıblar.

## Poliatlon çoxnövçülüyü üzrə rayon birinciliyi



Hərbi xidmətə hazırlıq məqsədi daşıyan "Marş irəli" devizli altında 244№li tam orta məktəbdə "Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyü üzrə Binəqədi rayon birinciliyi keçirilib. Yarışlarda rayonun 22 orta ümumtəhsil məktəbinin hər birinin tərkibində 5 nəfər oğlan (10-11-ci sinif) olmaqla 1 komanda, ümumilikdə isə 110 nəfər iştirak edib.

Atletlər yarış çərçivəsində turnikdə dartınma, qumbaraatma, 100 metr və 2000 metr məsafəyə qaçış üzrə normativləri yerinə yetiriblər. Yarışın yekun nəticələrinə görə, 244№-li tam orta məktəbin komandası I yeri tutub. 267№-li məktəb-liseyin komandası II, 297№-li tam orta məktəbin komandası isə III pillədə qərarlaşıb.

# Güclü yağışların səbəb olduğu problemlər aradan qaldırılır

### Rayondakı aidiyyəti qurumlar gücləndirilmiş iş rejimində çalışır

Son günlər Bakıda və Abşeron yarımadasında yağan intensiv yağışlar paytaxtın əksər rayonlarında bir sıra fəsadlar yaradıb. Güclü yağışların səbəb olduğu problemlər Binəqədi rayonundan da yan keçməyib.

Təbii fəlakətin baş verdiyi elə ilk gündən aidiyyəti qurumlar rayon rəhbərliyinin tapşırığına əsasən sel sularının törətdiyi çətinliklərin aradan qaldırılmasına başlayıblar. Yağışdan sonra xidməti ərazilərdə yaranmış qəza halları və texniki fəsadların operativ olaraq aradan qaldırılması istiqamətində Binəqədi Rayon Mənzil Kommunal Təsərrüfatı Birliyinin (MKTB) əməkdaşları müvafiq təlimat əsasında genişmiqyaslı tədbirlərə başlayıb. Bu barədə əməkdaşımıza məlumat verən Birliyin baş mühəndisi Vəli Əliyevin sözlərinə görə, havanın yağmurlu keçməsinə baxmayaraq, qurumun əməkdaşları yaşayış binalarının lift maşın kabinələrinin damını, novalçaları, yaşayış binalarının həyətlərində yağış sularının axıdılması xətlərinin təmizlənməsi işlərini həyata keçirir və çatışmazlıqlar aradan qaldırılır: "Paralel olaraq, ayrı-ayrı podratçı təşkilatlar tərəfindən təmir-bərpa işləri görülmüş yaşayış binalarının damında və digər hissələrində qeydə alınmış qəzalar araşdırılır və koordinasiya işləri diqqətdə saxlanılır. Rayon icra hakimiyyətinin xüsusi tapşırığı və rayon Fövqəladə Hallar Komissiyasının nəzarəti ilə yaranmış qəzalı vəziyyətlər operativ qaydada aradan qaldırılır".



Baş mühəndis bildirib ki, xidməti ərazilərdə güclü küləyin təsirindən əyilmiş iri gövdəli ağaclar təhlükəsizlik tədbirləri çərçivəsində müvafiq qaydada çıxarılaraq təyinatı üzrə daşınıb: "Tədbir rayon Yaşıllıq təsərrüfatının, 1 saylı MKİS-in əməkdaşlarının birgə fəaliyyəti ilə həyata keçirilir və MKTB-yə məxsus xüsusi təyinatlı texnikalardan istifadə olunur. Belə qabaqlayıcı tədbirlər digər mənzil-kommunal istismar sahələrinin ərazilərində də aparılıb. Bildiyiniz kimi, son günlər yağıntıların normadan çox olması nəticəsində avtomobil yollarına da ziyan dəyib və bəzi yerlərdə çox ciddi fəsadlara səbəb olub. Aparılmış son reydbaxışların nəticəsi olaraq, MKTB-nin xidməti ərazisi olan Azadlıq prospekti ilə C.Xəndan küçəsinin kəsişməsində avtomobil yolunda aşkar olunmuş qəza vəziyyəti ilə bağlı müvafiq qurumlar qarşısında qaldırılan məsələ dərhal diqqətə alınıb və icra işlərinə start verilib. Hazırda «Azəryolservis" Açıq Səhmdar Cəmiyyətinin müvafiq strukturlarının birgə iştirakı ilə avtomobil yolu istismar üçün bərpa olunur".

V.Əliyevin sözlərinə görə, MKTB rəhbərliyi mövsümlə əlaqədar əhalinin istiliklə normal təmin olunması istiqamətində də işlərini davam etdirir: "2016-2017-ci illərin payız-qış mövsümündə rayonun küçə, səki, məhəllədaxili ərazi və yollarının qardan vaxtında təmizlənməsi, ictimai nəqliyyatın hərəkətinin nizamlanması, qaz, su, istilik və elektrik enerjisi ilə təchiz edilməsi tədbirləri haqqında" Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müvafiq sərəncamından irəli gələn vəzifələrin icrası ilə bağlı xidməti ərazilər üzrə mövcud qazanxanaların fəaliyyətinə nəzarət məqsədilə reyd-baxışlar davam etdirilir, qarşıya çıxan texniki çatışmazlıqlar aradan qaldırılır: "Son günlər 106 saylı MKİS-in xidməti ərazisi olan F.Məlikov 2a, 2b, 53, 31, 3a, 3b, 3v, 2k və 272 saylı Körpələr evinin istilik təchizatının 159 dd ölçülü əsas paylayıcı xəttinin 300 metrlik hissəsi yenilənib. Əlavə edim ki, şəhərimizdə yağmurlu hava şəraiti hələ də davam edir. Bunu nəzərə alaraq, əməkdaşlarımız gücləndirilmiş iş rejimində calışırlar. Məqsədimiz isə yaranmış problemləri vaxtında və dərhal aradan qaldırmaqdır".

Əlavə edək ki, oktyabrın 17-dən 20-dək fasiləsiz yağan yağışlar rayonun Xocəsən, Biləcəri, Binəqədi və M.Ə.Rəsulzadə qəsəbələri ərazisində də daha intensiv olub. Nəticədə rayonun ərazisindən keçən Xırdalan-Binəqədi kollektoru, eyni zamanda qəsəbələrin ərazisindən keçən təbii kanal daşmış, sel suları ətrafa yayılaraq ümumilikdə 5 minə yaxın fərdi yaşayış evlərini, qeyr-yaşayış obyektlərini və məhəllədaxili yolları yağış və çirkab sular basıb. Sel sularının yaratdığı fəsadlara görə Binəqədi şossesində avtomobil nəqliyyatının hərəkəti tam məhdudlaşıb və buda əhali arasında ciddi narahatlığa səbəb olub. İcra hakimiyyətindən əməkdaşımıza bildirilib ki, təbii fəlakət baş verən gündən etibarən rayonun fövqəladə hallar komissiyasının tərkibində aidiyyəti qəsəbələr üzrə rayon icra hakimiyyətinin vəzifəli şəxslərinin rəhbərliyi ilə operativ qərargahlar yaradılıb, sakinlərlə yerlərdə görüşlər keçirilib və təbii fəlakətin fəsadlarının birgə aradan qaldırılması işləri təşkil edilib.

Həmçinin rayon kommunal xidmət təşkilatları gücləndirilmiş iş rejiminə



keçirilib və sutka ərzində növbətçilik sistemi təşkil edilib.

Binəqədi Rayon İcra Hakimiyyətinin, rayon Polis İdarəsinin, Fövqəladə Hallar Nazirliyinin, "Azərsu" ASC-nin və yerli özünüidarəetmə orqanlarının birgə gördüyü tədbirlər nəticəsində insan tələfatının qarşısı alınıb, təhlükəli yerlərdə olan 100-dən artıq ailə təxliyyə edilib və Binəqədi şossesində nəqliyyatın hərəkəti qismən bərpa olunub. Görülmüş tədbirlər nəticəsində Xocəsən qəsəbəsində təbii fəlakətin nəticələri tam aradan qaldırılıb. Biləcəri qəsəbəsində vətəndaşların xahişini nəzərə alaraq yağış sularını ötürmək üçün daxili imkanlar hesabına sakinlərlə birlikdə 3 min metrdən çox açıq kanalların qazılması işlərinə başlanılıb və bu iş bu gün də davam edir. Eyni zamanda bugünkü günə artıq 4500-dən cox evdən suyun çəkilməsi işləri yekunlaşıb, qalan 243 fərdi evlərdən isə nasoslar vasitəsilə suyun çəkilməsi prosesi davam etdirilir.

Hazırda təbii fəlakətin fəsadlarını tam olaraq aradan qaldırmaq üçün Binəqədi rayon İcra Hakimiyyəti tərəfindən müvafiq qurumlarla koordinasiyalı şəkildə zəruri tədbirlərin görülməsi davam etdirilir.

Onu da qeyd edək ki, sakinlərimiz günün istənilən saatında Binəqədi rayonunun su basmış ərazilərində yaradılmış və fəaliyyət göstərən Qərargahlara müraciət edə bilərlər.

Bununla əlaqədar ərazilərdə fəaliyyət göstərən - Binəqədi rayonu üzrə: 1646 («Sakinlərin Müraciət Xidməti– 1646"), M. Ə. Rəsulzadə qəsəbəsi üzrə: 412 28 74 (M.Ə.Rəsulzadə bələdiyyəsi), Biləcəri qəsəbəsi üzrə: 401 37 64 (Biləcəri bələdiyyəsi) və Binəqədi qəsəbəsi üzrə: 411 21 80 (daxili nömrə-19) (Binəqədi bələdiyyəsi) qərargahlarla əlaqə saxlamaq olar.

Xatırladaq ki, son günlər paytaxtda havaların yağışlı və küləkli keçməsinə baxmayaraq, rayonda əhalinin qaz, su və işıqla bağlı təminatında çətinliklər qeydə alınmayıb.



# Dövlət müstəqilliyi – firavan gələcəyə təminat




Bakı Şəhər Mədəniyyət və Turizm Baş İdarəsinin Binəqədi rayonu Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) 1 saylı filialında 18 Oktyabr- Dövlət Müstəqilliyi Gününə həsr olunmuş tədbir keçirilib. “Dövlət müstəqilliyi – firavan gələcəyə təminat” adlı tədbirdə ədliyyə general mayoru, əməkdar hüquqşünas, Binəqədi Rayon Ağsaqqallar Şurasının sədri Akif Rəfiyev, “Əfqanıstan veteranları” İctimai Birliyinin rayon şöbəsinin sədri Məhəddin Rüstəmov, MKS-in Metodika-biblioqrafiya şöbəsinin baş biblioqrafı Minayə Hüseynova, komplektləşdirmə və kitabişləmə şöbəsinin böyük kitabxanaçısı Hədiyyə Nuriyeva, MKS-in 6 saylı filialın müdiri Mərziyyə Hüseynli, MKS-nin 2 saylı filialın müdiri Aygül Orduxanlı və oxucular iştirak ediblər.

Dövlət himni səsləndirildikdən sonra 1 saylı filialın direktoru Almaz Ələkbərova qonaqları salamlayıb və onları bayram münasibətilə təbrik edib. Tədbirdə çıxış edən Akif Rəfiyev 1991-ci il oktyabrın 18-də “Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı”nın qəbul olunması, müstəqil Azərbaycan dövlətinin Azərbaycan Xalq Gümhuriyyətinin hüquqi varisi elan edilməsi barədə tədbir iştirakçılarına ətraflı məlumat verib. O, 1918-ci il mayın 28-dən aprelin 28-dək mövcud olmuş Azərbaycan Demokratik Respublikasının varisi olan müstəqil Azərbaycanın 25 il ərzində köçdiyi inkişaf yolundan, əldə etdiyi nailiyyətlərdən bəhs edib. Müstəqillik yollarında ölkəmizin bir çox daxili və xarici təhdidlərlə üzləşdiyini vurğulayan A.Rəfiyev yalnız ümummilli lider Heydər Əliyevin1993-cü ildə hakimiyyətə qayıdışı və apardığı müdrik siyasət nəticəsində ölkənin məhvolma təhlikəsinə, separatçılıq meyillərinə və vətəndaş müharibəsinə son qoyulduğunu tədbir iştirakçılarının diqqətinə çatdırıb. Bidirilib ki, ulu öndərin uzaqgörən siyasəti bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Tədbirdə çıxış edən digər iştirakçılar da dövlətimizin müstəqilliyinin əbədi və sarsılmaz olmasından və bu yolda görülən işlərdən danışıblar. Oxucu-şagirdlər Dövlət Müstəqilliyi Günü ilə bağlı şeirlər söyləyiblər. Sonda müstəqilliyimizə həsr olunmuş film nümayiş etdirilib və mövzu iə bağlı təşkil olunmuş sərgiyə baxış keçirilib.

# Məktəblilərə vətənpərvərlik təbliğ olunur




Binəqədi rayonu 283 saylı məktəbdə “Azərbaycan yazıçılarının əsərlərində milli vətənpərvərliyin və qəhrəmanlığın təbliği” adlı tədbir keçirilib. Tədbirdə millət vəkili Aqil Abbas, Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Leyla Kərimova, tarixçi-publisist Yunus Oğuz, yazıçı-dramaturq, publisist Elçin Hüseynbəyli, şair-publisist Əbülfət Mədətoğlu, məktəbin direktoru Tünzalə Zeynalova, Qarabağ qazisi Nahid Canbaxışlı və məktəbin şagird, müəllim heyəti iştirak ediblər.

Tədbir iştirakçılarını salamlayan məktəb direktoru rəhbərlik etdiyi tədris müəssisəsində mütəmadi olaraq vətənpərvərlik mövzusunda şagirdlərlə belə görüşlərin keçirildiyini diqqətə çatdırıb. Sonra çıxış edən Leyla Kərimova rayon rəhbərliyi adından tədbir iştirakçılarını salamlayıb və mövzunun əhəmiyyəti barədə fikirlərini söyləyib. Qeyd olunub ki, Azərbaycan xalqı gələcəyimiz olan gənc nəslin Vətənə məhəbbət, xalqına, el-obasına hörmət, soykökünə, ata-babalarının ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasına həmişə böyük məsuliyyətlə yanaşıb və ona həyati əhəmiyyətli məsələ kimi baxıb: “Bu bir həqiqətdir ki, vətənpərvərlik insanda fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik hissi yaradır, apardığı mübarizədə onda inam hissini gücləndirir. Vətənpərvərlik həm də Vətənin naminə çalışmaq, Vətəni qorumağa hər an hazır olmaq, onun yolunda qəhrəmanlıqlar, fədakarlıqlar göstərmək, dövlətin hər bir uğuruna sevinməkdir. Bu hiss insanda anadangəlmə olsa da, bütün digər hisslər kimi, maarifləndirmə istiqamətində işlər görülməsinə ehtiyac vardır. Vətənpərvərlik hissinin böyüməkdə olan nəslə aşılanması, uşaq, yeniyetmə və gənclərin bu ruhda tərbiyə olunması həmişə təlim-tərbiyə işinin ən mühüm istiqamətlərindən, təhsil müəssisələrinin ən vacib vəzifələrindən olub”. Natiq çıxışının yekununda Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı tərəfindən rayonun ictimai-siyasi həyatındakı fəallığına görə 283 saylı orta məktəbə ünvanlanmış təşəkkür məktubunu oxuyub və məktəbin direktoruna təqdim edib.

Tədbirə qatılan qonaqlar öz çıxışlarında bu cür tədbirlərin böyük əhəmiyyətini qeyd edərək bildiriblər ki, əsl vətənpərvərlik - öz doğma Vətəninə hədsiz məhəbbət göstərməsində, onun müvəffəqiyyətlərini gördükdə ürəkdən sevinməsində, düşmənlərinə dərin nifrət bəsləməsində, hər qarış torpağın göz bəbəyi kimi qorunmasında, döyüş bacarığına və vərdişlərinə yiyələnməsində ifadə olunur. Hərbi-vətənpərvərlik hissi doğma yerlərə və adamlara bağlılıqdan, onları xarici və daxili düşmənlərdən qorumaqdan başlayaraq, bütün qüvvə və qabiliyyətini xalqın mənafeyi uğrunda mübarizəyə həsr etməyə qədər inkişaf edib yüksəlir.

Tədbirin sonunda şair və yazıçılar tərəfindən şagirdlərə kitablar hədiyyə olunub.

# Asudə vaxtdan səmərəli istifadə edilir



Binəqədi rayonunda yeniyetmə və gənclərin yaradıcılıq qabiliyyətlərinin üzə çıxarılması, eləcə də onların asudə vaxtının səmərəli təşkili, diqqət mərkəzində saxlanılan məsələlərdəndir. Rayon ərazisində bir neçə uşaq-gənclər yaradıcılıq mərkəzi fəaliyyət göstərir. Bu məktəblər fəaliyyətini müasir dövrün tələbləri səviyyəsində quraraq gənc və yeniyetmələrin zərərli vərdişlərdən uzaq olmasına, mənəvi-intellektual səviyyəsinin artmasına kömək olur.

Biləcəri qəsəbəsində yerləşən 26 saylı Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində də istedadlı uşaqlar üçün hər cür şərait yaradılıb. Burada təkcə Binəqədidən deyil, paytaxtın digər rayonlarından da uşaqlar bacarıqlarını nümayiş etdirirlər. Mərkəzin foyesində yaradıcı uşaqların düzəltdikləri avtomobil, raket və gəmi modelləri, müxtəlif janrlı rəsm əsərləri, əl işləri zövq oxşayır. 1988-ci ildən fəaliyyət göstərən yaradıcılıq mərkəzində texniki, bədii, estetik və tətbiqi incəsənət bölmələri var. Bu bölmələr üzrə «Bacarıqlı əllər», «Bədii qiraət», «Rəsm», «Xalçaçılıq», «Dram», «Bədii özfəaliyyət», «Məktəb teatrı», «Rəqs», «Nağara», «Qarmon», «Dizayner», «Texniki estetika», «Gəmi», «Avto», «Raket», «Təyyarə modelçiliyi» və s. adlar üzrə dərnəklər fəaliyyət göstərir. 17 adda dərnək üzrə 74 qrupun fəaliyyət göstərdiyi yaradıcılıq mərkəzində 1000-dən artıq yeniyetmə və gənc asudə vaxtını səmərəli keçirir. Bacarıqlı uşaqlarla 32 müəllim məşğul olur.

Mərkəzin direktoru Ziyad Nəbiyev bizimlə söhbətində bildirdi ki, məhz belə tədris müəssisələrində gələcəyimiz olan gənc nəsil faydalı işlərlə məşğul olur, pis vərdişlərdən uzaqlaşır. Müxtəlif dərnəklərdə onlar bacarıqlarını göstərir, fərdi xüsusiyyətləri ilə yaşıdlarından fərqlənir, gələcəkdə hansı peşəni seçəcəklərinə dəqiq qərar verirlər: “Dərnəyimizin üzvləri il ərzində müxtəlif mədəni-kütləvi tədbirlər, müsabiqələr, sərgilər, bayram şənlikləri keçirir, respublika və beynəlxalq səviyyəli tədbirlərdə iştirak edirlər. Mərkəzdə, həmçinin, «Sağlam həyat tərzi» və s. mövzularda məşğələ və seminarlar təşkil olunur, narkomaniya və alkoqolizmlə mübarizə üzrə maarifləndirmə işləri aparılır. Qeyd edim ki, dərnək rəhbərləri məşğələlərin məzmununun yeniləşdirilməsi, müasir tələblərə cavab verən yeni tədris planı və proqramların hazırlanması istiqamətində fəal çalışırlar. Texniki bölmələrə cəlb olunan uşaqların yaradıcılıq potensiallarının inkişafına, onların ixtiraçılıq qabiliyyətlərinin üzə çıxarılmasına ciddi nəzarət edilir. Belə müəssisələrdə məşğul olan məktəblilər ümumtəhsil ocaqlarında bu sahə üzrə bilikləri daha yaxşı mənimsəyirlər. Mərkəzə müraciət edən istedadlı uşaqların sayı günü-gündən artmaqdadır. Bundan başqa, bizim müəllimlər vaxtaşırı Biləcəri qəsəbəsində yerləşən orta məktəblərdə olur, bacarıqlı uşaqları buraya cəlb edirlər».

Mərkəzin yetirmələrinin mütəmadi olaraq müxtəlif müsabiqələrdə iştirak etdiyini deyən direktor onların elmi-texniki yaradıcılıq müsabiqəsində də mükafata layiq yerlər tutduğunu diqqətə çatdırdı: “Mərkəzin yetirmələri ötən illərdə olduğu kimi, cari ilin 9 ayı ərzində də ayrı-ayrı müsabiqə və rəsm sərgilərində uğurla iştirak ediblər. İstedadlı uşaqlarımızın bir neçəsi ümumrespublika sərgilərində mükafatçılar sırasında yer tutub. Bakı Təhsil İdarəsinin təşkil etdiyi folklor müsabiqəsində istedadlı uşaqlarımız iştirak edərək ayrı-ayrı nominasiyalarda fərqləniblər. İstedadlı uşaqlarımız “Azərbaycan Səninlədir – Sənsiz deyil” VI yaradıcılıq müsabiqəsində, eləcə də “Səni tərənnüm edirəm, Azərbaycan!” festivalında fəal iştirak ediblər. Bundan başqa, mərkəzin yetirmələri tanınmış şairimiz Qabil İmamverdiyevin yubileyi ilə bağlı keçirilən şeir müsabiqəsində fərqləniblər. İstedadlı gənclərimiz «Multikulturalizm ili» çərçivəsində təşkil olunan inşa, rəsm və şeir müsabiqələrində də fəallıq göstərirlər”.

Hazırda Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin yetirmələri qarşıdakı müsabiqə və sərgilərə məsuliyyətlə hazırlaşırlar. Yaradıcı uşaqlar bu müsabiqələrdə öz istedad və bacarıqlarını yüksək səviyyədə nümayiş etdirmək əzmindədirlər.

# Orduya hazırlıq məktəb yaşlarından başlanılmalıdır



Azərbaycan dövləti gənc nəslə xüsusi qayğı ilə yanaşır, gəncliyin vətənpərvər ruhda tərbiyəsinə yetərincə diqqət ayırır. Dövlətimiz gənclərin fiziki sağlamlığına, mənəvi inkişafına xidmət edən bir sıra mühüm qərarlar qəbul edib. Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi onların vətənpərvər ruhda böyüməsinə, xalqına, millətinə sədaqətlik nümayiş etdirməsinə vəsilə olur. Sağlam ruhda böyüyən yeniyetmə və gənc sabahın əsgəri, vətənin keşikçisidir. Şübhəsiz ki, vətəni fiziki cəhətdən sağlam insanlar qoruyurlar. Məhz bu baxımdan, ölkəmizdə gənc nəslin fiziki cəhətdən sağlam böyüməsi xüsusi diqqət mərkəzində saxlanılır.

Paytaxtın Binəqədi rayonunda da gənclər arasında hərbi vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi istiqamətində mütəmadi olaraq təddbirlər təşkil olunur, layihələr həyata keçirilir. Əsas məqsəd gənclər arasında vətənpərvərlik ruhunun gücləndirilməsi, çağırış yaşına çatmış gənclərin hərbi xidmətə həvəsləndirilməsi istiqamətində maarifləndirmə işinin təşkili üsullarını öyrətmək və təbliğ etməkdir. Binəqədi rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə yeniyetmə və gənclərin vətənə məhəbbət, Azərbaycan xalqının tarixinə hörmət ruhunda tərbiyə olunması və gələcək nəsillərin qan yaddaşının möhkəmləndirilməsi məqsədilə orta ümumtəhsil məktəblərinin şagirdlərinin Azərbaycan Respublikasının Hərbi Prokurorluğunun “Memorial Soyqırımı Muzeyi”, “İstiqlal” muzeyinə ekskursiyası təşkil olunur, vətənpərvərliklə bağlı müsabiqələr, tədbirlər, seminarlar keçirilir. Vətən sevgisi, torpağa bağlılıq, milli atributlarımıza hörmət gənclərin ən müqəddəs borcudur. Bu istiqamətdə ümumtəhsil məktəblərinin üzərinə böyük məsuliyyət düşür. Rayon ərazisində fəaliyyət göstərən məktəblərdə hərbi-vətənpərvərlik tərbiyəsini gücləndirmək məqsədilə hərbi hissələrlə əlaqələr qurulur.

Sirr deyil ki, hazırda hərbi-vətənpərvərlik tərbiyəsi bütün pedaqoji kollektivlərin, ictimai təşkilatların müntəzəm məşğul olduğu bir sahəyə çevrilib. Binəqədi rayonunda fəaliyyət göstərən 276 saylı orta məktəbin direktoru Bəhram Şiriyevin sözlərinə görə, əsl vətəndaş yetişdirmək üçün təhsil sahəsi qarşısında böyük vəzifələr qoyulub: “Bununla belə, dövlətçilik, vətəndaşlıq təkcə orta məktəb dərsliklərində və ya hansısa əyani vasitələrdə əks olunmalı deyil, bütün bunlar hər bir sahədə təbliğ edilməli, sevgi və ehtiram hədəfinə çevrilməlidir. Bu baxımdan, təbliğatın uğurlu və təsirli olmasında televiziyanın, ümumiyyətlə, mətbuatın rolu və xidməti əvəzolunmazdır. Televiziya kanallarında yayımlanan vətənpərvərlik proqlamları, tariximizi əks etdirən verilişlər diqqətlə izlənilir. Gənc nəslin orduya hazırlığı barədə danışarkən orta məktəblərdə tədris olunan bədən tərbiyəsi dərslərinin rolunu da qeyd etmək yerinə düşər. Bu gün Azərbaycanın müharibə şəraitində olduğunu nəzərə alsaq, böyüməkdə olan nəslin fiziki tərbiyəsinin necə əhəmiyyət kəsb etdiyinin fərqinə vararıq. Binəqədi gənclərinin vətənpərvər vətəndaş kimi yetişməsində əlimizdən gələni etməyə çalışırıq. 20 yanvar hadisələrində və Qarabağ savaşında şəhidlik zirvəsinə yüksələn igidlərimizin uyuduğu Şəhidlər xiyabanına ziyarətlərin təşkil edilməsi, veteranlarla görüşlərin keçirilməsi, Xocalı abidəsinin ziyarəti gənclərimizin milli ruhda tərbiyəsində əvəzsiz rol oynayır. Məktəbimizdə vətənpərvərliklə bağlı müxtəlif mövzularda inşa, şeir və rəsm müsabiqələrinin keçirilməsi ənənə halını almışdır. Bütün bunlar isə, dediyim kimi, gənc nəslin vətənpərvərlik tərbiyəsinə yönəldilmişdir”.



135 saylı məktəbin hərbi hazırlıq müəllimi İmamverdi Babayevin sözlərinə görə, hərbi-vətənpərvərlik tərbiyəsi bir məqsədə - gəncləri vətənimizin fəal müdafiəsinə hazırlamağa xidmət etməlidir: “Vətənpərvərlik insanın daxili aləmini üzə çıxaran müqəddəs duyğudur. Vətəni sevmək - hər bir vətəndaşın üzərinə düşən vəzifələri kompleks şəkildə vicdanla yerinə yetirməsi deməkdir. Bu sevgi torpağa olan bağlılıqdan və milli adət-ənənələrə, dövlətçiliyə hörmətdən qaynaqlanır. Məktəblərin pedaqoji kollektivlərinin qarşısında gənc nəslin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi sahəsində məsul və təxirəsalınmaz vəzifələr qoyulması heç də təsadüfi deyildir. İndiki şəraitdə məktəbli gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi böyük əhəmiyyət kəsb edir. Məhz bu baxımdan, gəncləri məktəb yaşlarından orduya hazırlamalıyıq”.

Bu gün müstəqil respublikamızın inkişafı, ilk növbədə, böyüyən nəslin təlim-tərbiyə işinin düzgün təşkilindən, vətəndaş kimi formalaşmasından asılıdır. İstər ailədə, istər məktəbdə, istərsə də cəmiyyət daxilində aşılanan tərbiyənin əsas məqsədi kamil şəxsiyyət, vətənpərvər insan yetişdirməkdir.

# Binəqədi məktəbliləri “İstiqlal” muzeyində



M.Ə.Rəsulzadə bələdiyyəsinin “İctimai-humanitar” sektorunun təşkilatçılığı ilə 18 Oktyabr - Müstəqillik Günü münasibətilə qəsəbə ərazisində yerləşən 99, 100, 143 saylı orta məktəblərin şagirdlərinin “İstiqlal” muzeyinə ekskursiyası təşkil olunub. Tədbirdə M.Ə.Rəsulzadə bələdiyyəsinin sədr müavini Leyli Tahirova, Yerli sosial məsələlər daimi komisiyyasının sədri Günel Vahabzadə, bələdiyyə üzvləri, məktəblilər iştirak ediblər.

Ekskursiya zamanı şagirdlər muzeydə ən qədim zamanlardan müasir dövrümüzə qədər Azərbaycan xalqının öz müstəqilliyi uğrunda apardığı mübarizənin mərhələləri və mədəni-tarixi həyatındakı mühüm hadisələri əks etdirən əyani vasitələrlə tanış olublar. Ekskursiya zamanı Azərbaycanın 25 illik müstəqillik tarixini əks etdirən video-çarx nümayiş etdirilib.



Muzeyin ekspozisiyası 6 zalda yerləşdirilib. 1-ci zalda Azərbaycanın dövlət rəmzləri – ölkəmizin üçrəngli bayrağı, Dövlət gerbi, Dövlət himni və Konstitusiyanı əks etdirən sənədlər nümayiş olunur, 2-ci zal XIX əsrin ikinci yarısından XX əsrin əvvəlinədək olan dövrü əhatə edir, 3-cü zalda Cənubi Azərbaycanda baş vermiş milli-azadlıq hərəkatlarından – 1905-1911-ci illər Məşrutə hərəkatı, 1917-1920-ci illər Şeyx Məhəmməd Xiyabani hərəkatı, 1941-1945-ci illərdəki “21 Azər” hərəkatından (Seyid Cəfər Pişəvərinin başçılığı ilə) danışılır. 4-cü ekspozisiya zalı iki hissədən ibarətdir: birinci hissə ötən əsrin 20-30-cu illərində Azərbaycanda repressiyaya məruz qalan görkəmli şəxsiyyətlər haqqında məlumat verilir, digər bölmə isə II Dünya müharibəsində (1939-1945) ölkəmizin qəhrəman oğul və qızlarının ön və arxa cəbhədə göstərdiyi şücaəti əks etdirir. Burada nümayiş olunan silah, partladılmış mərmi, çap maşını, Morze teleqraf aparatı, səhra telefonu xüsusi maraq doğurur. 5-ci zal Qarabağ hadisələrinə həsr olunub. Bildirilib ki,1993-cü il iyunun 15-də ulu öndər Heydər Əliyevin Bakıya dəvət olunması ilə həmin gün tariximizə Milli Qurtuluş Günü kimi daxil olub. Bu tarixdən başlayaraq ölkəmizin keçdiyi inkişaf yolu haqqında məlumatı muzeyin ziyarətçilərinə 6-cı zalda geniş məlumat verilir. Burada müstəqil Azərbaycanın dövlət və ordu quruculuğunu, xarici siyasətini, iqtisadiyyatını, “Əsrin müqaviləsi”nin (1994) bağlanması, ölkəmizin mədəniyyətini, beynəlxalq təşkilatlarda iştirakını əks etdirən fotoxronika nümayiş olunmaqla yanaşı, ümummilli liderin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin fəaliyyətini əks etdirən materiallar diqqəti cəlb edir.

# Şüşə üzərində rəsm sərgisi



Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi, “Virtual Qarabağ” İKT Mərkəzi, Binəqədi Rayon Gənclər və İdman İdarəsi, “ZƏKA” Gənclərin İntellektual İnkişaf və Yaradıcılıq Mərkəzi, “Sağlam Düşüncə” Gənclər Təşkilatı, “IB Club” Gənclərin İnkişaf Mərkəzi və “Park Bulvar” AVM-in təşkilatçılığı ilə Qarabağ xalçaçılıq məktəbinin ənənələrini yaşatmaq və gənc nəslə aşılamaq məqsədilə həyata keçirilən “Al-Əlvan QARABAĞ” şüşə üzərində rəsm sərgisi layihəsi çərçivəsində Binəqədi rayonu Gənclər evinin Sərgi qalereyasında növbəti sərgi təşkil olunub.

Tədbirdə Binəqədi Rayon Gənclər və İdman İdarəsinin rəisi Qüdsi Bayramov, Gənclər və İdman Nazirliyi yanında Gənclərlə iş üzrə İctimai Şuranın sədri Nurəddin Mehdiyev, layihə rəhbəri - “Zəka” Gənclərin İntellektual İnkişaf və Yaradıcılıq Mərkəzinin baş direktoru Güllü Atakişiyeva, gənc rəssamlar iştirak ediblər.

Tədbirin rəsmi hissəsində çıxış edən natiqlər bildiriblər ki, Azərbaycan xalçaçılıq sənətində özünəməxsus yer tutan Qarabağ xalçalarının qorunması, dünyada tanıdılması çox vacibdir. Çıxışlarda Azərbaycanın qədim və zəngin ənənələrə malik xalçaçılıq sənətinin öyrənilməsində və gənclər arasında təbliğ edilməsində belə layihələrin, tədbirlərin və sərgilərin əhəmiyyəti vurğulanıb.

Sonra şüşə üzərində Qarabağ xalçaları təsvir olunmuş rəsm əsərlərindən ibarət sərgiyə baxış keçirilib. Ümumilikdə sərgidə 25 əsər nümayiş olunub. Sərginin sonunda daha çox bəyənilmiş ilk üç əsərin müəllifi plaketlə, digər müəlliflər isə sertifikatlarla təltif olunublar.

Qeyd edək ki, layihə çərçivəsində ilk sərgi Şəmkir şəhərində fəaliyyət göstərən “Zəka” Gənclərin İntellektual İnkişaf və Yaradıcılıq Mərkəzinin Müasir İncəsənət Qalereyasında, sonuncu sərgi isə Park Bulvar alış-veriş mərkəzində baş tutub.

# Gənclər arasında mütaliəyə marağın artırılması məqsədilə...



Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi, Binəqədi rayon Gənclər və İdman İdarəsi və Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının “Kitab klubu”nun təşkilatçılığı ilə VIII qrant müsabiqəsinin qalibi, Akademiyanın İqtisadiyyat fakültəsinin III kurs tələbəsi Xəlil Babayevin “Kitablı əllər - Qızıl əllər” layihəsi həyata keçirilib.

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasında baş tutan layihənin açılış mərasimində bu tədris ocağının elmi işlər üzrə prorektoru, iqtisad üzrə fəlsəfə doktoru, dosent Mobil Məcidov, akademiyanın kitabxanasının müdiri Maya Abdullayeva, rayon Gənclər və İdman İdarəsinin baş məsləhətçisi Rüfət Əhmədov, tələbələr iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Xəlil Babayev layihə haqqında ətraflı məlumat verib, onun həyata keçirilməsində göstərdikləri köməyə görə təşkilatçılara təşəkkürünü bildirib.

Sonra çıxış edən Mobil Məcidov, Rüfət Əhmədov və Maya Abdullayeva ölkəmizdə, o cümlədən Binəqədi rayonunda gənclərə göstərilən diqqət və qayğıdan danışıblar. Qeyd olunub ki, Gənclər Fondunun dəstəyi ilə yeniyetmələr asanlıqla öz ideyalarını gerçəkləşdirə bilirlər. “Kitablı əllər - Qızıl əllər” layihəsinin çox aktual mövzuya, gənclərin mütaliəyə marağının artırılmasına həsr olunduğunu vurğulayan natiqlər bu cür layihələrin davamlı olmasını arzulayıblar.

Layihə çərçivəsində Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasında və Binəqədi rayon Gənclər Evində təqdimatlar keçirilib.

Qeyd edək ki, “Kitablı əllər-Qızıl əllər” layihəsində “Bomba”, “Ernst Miller, “Mücrü”, “Əxlaqi-Nasir”, “Qarabağ” və “Studentlər” komandaları müxtəlif bədii ədəbiyyat nümunələri əsasında təqdimatla çıxış ediblər. Sonda fərqlənən 4 komanda sertifikat və hədiyyə ilə mükafatlandırılıblar.


Binəqədi Rayon İcra Hakimiyyətinin
Sakinlərin Müraciət Xidməti




Sizin zənginiz bizim üçün çox əhəmiyyətlidir!

www.binegedi-ih.gov.az


# Şagirdlər “Xəmsə” yarışmasında



Binəqədi Rayon İcra Hakimiyyətinin dəstəyi, rayon Gənclər və İdman İdarəsi, Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının Gənclər Birliyi və Gənclər üçün Təhsil Mərkəzinin təşkilatçılığı ilə 18 Oktyabr – “Dövlət Müstəqilliyi Günü”nün 25-ci ildönümü münasibətilə Binəqədi rayon Gənclər Evində rayon orta ümumtəhsil məktəbləri arasında “Xəmsə” milli intellektual oyunu keçirilib.



Yarışın birinci mərhələsində Binəqədi və Binəqədi qəsəbə bələdiyyəsi ərazisində olan məktəblərin şagirdləri iştirak ediblər. İkinci mərhələdə isə Biləcəri, M.Ə.Rəsulzadə və Xocəsən bələdiyyələrinin ərazisində olan məktəblərin komandaları mübarizə aparıblar.

“Xəmsə” milli intellektual oyununun yarımfinal və final mərhələsində 83 №li məktəb-lisey, 143 №li tam orta məktəb, 205 №li tam orta məktəb, 246 №li məktəb-lisey, 283 №li tam orta məktəb, 299 №li məktəb-lisey, 313 №li tam orta məktəb, 314 №li tam orta məktəbin komandaları yarışıblar. Yarışın yekun nəticəsinə görə, 246 №li məktəb-liseyin “Uğur” komandası I, 283 №li tam orta məktəbin “Kainat” komandası II, 83 №li məktəb-liseyin “Odlar yurdu” komandası isə III yeri tutub.

# Gənc nəsil milli ruha köklənir




Binəqədi rayon Gənclər evində Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi, rayon Gənclər və İdman İdarəsi və Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatı Gənclər Birliyinin təşkilatçılığı ilə VIII qrant müsabiqəsinin qalibi Ülkər Qəhrəmanlının “Milli ruh” adlı layihəsi təqdim olunub. Layihənin açılış mərasimində Gənclər və İdman İdarəsinin baş məsləhətçisi Rüfət Əhmədov, YAP rayon təşkilatı Gənclər Birliyinin sədri Mahmud Məmmədzadə, layihənin rəhbəri Ülkər Qəhrəmanlı və gənclər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Ülkər Qəhrəmanlı layihə haqqında ətraflı məlumat verib, onun həyata keçirilməsində göstərdikləri köməyə görə Gənclər Fonduna və təşkilatçılara təşəkkürünü bildirib. Sonra çıxış edən təlimçi Mahmud Məmmədzadə xalqımızın sahib olduğu zəngin tarixi keçmişdən, milli-mənəvi dəyərlərdən bəhs edərək bildirib ki, ölkəmizdə yeniyetmə və gənclərin vətənpərvərlik və vətəndaşlıq tərbiyəsi sahəsində aparılan işlər ümumilikdə gənc nəsildə milli ruhun möhkəmlənməsinə xidmət edir. Müharibə şəraitində yaşadığımızı nəzərə çatdıran natiq gənclərin vətənə, dövlətə bağlı olmasının, zəngin dövlətçilik irsinin qorunub saxlanılmasının əhəmiyyətini vurğulayıb.

Sonra layihə çərçivəsində növbəti təlimlər və layihənin yekununa həsr olunmuş tədbir keçirilib. Diskussiya formasında keçirilən təlimlərdə layihə iştirakçıları Azərbaycanın milli-mədəni irsi və tarixi haqqında fikir mübadiləsi aparıb, eləcə də dünyada gedən qloballaşma fonunda milli dəyərlərin, adət-ənənələrimizin qorunması ilə bağlı təkliflərini səsləndiriblər. Layihənin yekununda iştirakçılara sertifikatlar təqdim olunub.